RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 122 (9001) ŞƏNBƏ, 11 iyun 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Əhalinin etibarlı və dayanıqlı enerji təminatı Prezidentin nəzarətindədir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda "Azərişıq" ASC-nin 110/35/10 kilovoltluq yeni yarımstansiyasının və Rəqəmsal Şəbəkələrin Baş İdarəetmə Mərkəzinin açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, "Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov dövlət başçısına yeni yarımstansiyada və idarəetmə mərkəzində yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, paytaxtın Yasamal rayonu ərazisində, Füzuli meydanının yaxınlığında tikilən yeni yarımstansiya Bakı şəhərinin sürətlə artan elektrik enerjisi tələbatını qarşılamaq, etibarlılığı və dayanıqlılığı təmin etmək məqsədilə inşa olunub. Həmçinin yarımstansiya şəhərin elektrik təchizatının etibarlılığının və dayanıqlılığının təmin edilməsi məqsədilə perspektivdə yaranacaq yüklərin 220 kilovoltluq "Müşfiq" və "Xırdalan" yarımstansiyaları arasında paylanması və ötürülməsi üçün nəzərdə tutulub. Yeni yaradılacaq 110 kilovoltluq dairəvi sxemin tərkib hissəsinə aid olan yarımstansiyanın əlaqələndirilməsi "Yasamal-1", inşa ediləcək "Təzə Bazar", "Zəfər" və mövcud "Dağlıq" yarımstansiyaları vasitəsilə həyata keçiriləcək. Yarımstansiyada müasir tipli eleqaz avadanlıqları, elektron tipli rele mühafizəsi və avtomatika qurğuları quraşdırılıb.

→ 2

## Azərbaycan ilə Türkmənistan arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə prezidentlər bir-birini təbrik ediblər



→ 2

## Qətiyyətli siyasətin təcəssümü

### Azərbaycan bütün məsələlərdə milli maraqlarını inamla təmin edir

**Azərbaycanı qlobal miqyasda nüfuzlu dövlət kimi tanıdan amillərdən biri respublikamızın hər zaman özünün milli maraqlarını qətiyyətlə təmin etməsidir.**

Hələ 28 il əvvəl "Əsrin müqaviləsi"ndən başlamış müstəqilliyimizi və dövlətçiliyimizi şərəfləndirən digər hadisələrə - Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinə, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinə, "Cənub qaz dəhlizi"nin yaradılmasına qədər keçilən yol ilk növbədə Azərbaycan dövlətinin öz maraq və mənafelərin inamla reallaşdırmasının tarixi salnaməsidir.

→ 4

## Slovakiya Milli Şurasının sədri ölkəmizə rəsmi səfərə gəlib

**İyunun 10-da Slovakiya Respublikası Milli Şurasının sədri Boris Kollar ölkəmizə rəsmi səfərə gəlib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Heydər Əliyev Beynəlxalq Hava Limanında Slovakiya Milli Şurası sədrinin başçılıq etdiyi parlament nümayəndə heyətini Milli Məclis Sədrinin müavini Fəzail İbrahimli, Azərbaycan-Slovakiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Anar Məmmədov, Azərbaycanın Slovakiyadakı səfiri Rövşən Sadıqbəyli və digər rəsmi şəxslər qarşılayıblar.

Rəsmi səfər iyunun 13-də başa çatacaq.

*"Azərbaycan"*

## Prezident "Əlilliyin və sağlamlıq imkanlarının məhdudluğunun qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi haqqında" Fərmana dəyişiklik edib



→ 2

## Vətən borclu qalmır

### Şəhid ailələri və qazilər dövlətin hər cür dəstəyi ilə əhatə olunmuşlar

Vətən müharibəsində yaralanmış hərbçilərin əlilliyinin qiymətləndirilməsi, reabilitasiya xidmətləri və vasitələri ilə təminatı, əlillik sahəsində tətbiq olunacaq yeni meyarlara dair Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi keçirdiyi mətbuat konfransında ətraflı məlumat vermişdir.

Qeyd edək ki, müharibədən sonra aidiyyəti qurumların nümayəndələrindən ibarət komissiya müharibədə yaralanmış qazilərin əlilliyinin qiymətləndirilməsi üçün operativ sənədləşdirmə işlərini yerinə yetirmişdir. Yekun mərhələ kimi Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi müalicə müddəti başa çatmış qazilərin əyani müayinələr əsasında əlilliyinin qiymətləndirilməsini aparmış və artıq 3 min qaziyə əlillik və sosial ödənişlər təyin olunmuşdur.

→ 4

## Azərbaycan-Türkiyə birliyinin gücü

**Dünya yeni çağırışlarla üz-üzədir. Ölkələrin, cəmiyyətlərin həyatında, beynəlxalq münasibətlər sistemində çox şeylər dəyişir. Dəyişməyən bircə amil varsa, o da güc amilidir ki, o da hər zamankı kimi yenə də həlledici əhəmiyyət daşımaqdadır.**

Müasir dünyamızda dövlətlərin gücü həm də onların texnologiyalara münasibətilə müəyyənləşir. Bu sahəyə edilən yatırımlar, potensiallarını reallaşdırmaqdan ötrü istedadlı insanlara verilən dəstək, yaradılan şərait, xüsusilə gənclərin elmə-biliyə ruhlandırılması, ordu quruculuğunda yeni texnologiyalardan istifadə ölkələri daha güclü edir.

→ 5

## Cənubi Qafqazın lider dövlətinin nüfuzu artır

Bu gün ölkəmiz öz iqtisadi gücü, artan hərbi qüdrəti ilə Cənubi Qafqazın lider dövləti olmaqla yanaşı, həm də sülhün, təhlükəsizliyin qarantı rolunda çıxış edir. Bu, heç də asan başa gələn məsələ deyil.

Əldə olan uğurlarımıza, respublikamızın artan gücünə, xalqımızın hər gün yaxşılaşan xoş güzəranına görə ilk növbədə Prezident İlham Əliyevə minnətdar olmalıyıq. Ölkəmizin adının dünyada söz sahibi olan böyük dövlətlərlə bir arada çəkilməsi olduqca qürurvericidir.

Heç kimə sirr deyil ki, dövlətlərarası münasibətlərdə liderin şəxsi nüfuzu inkarolunmaz rola malikdir. Bunu zaman-zaman gözlərimizlə görüb, həyatımızda da yaşamışıq. Yaxın keçmişimizi yada salaq. Ötən əsrin 90-cı illərində ölkəyə rəhbərlik edənlər qonşu dövlətlərdən ölüm təhlükəsi ilə baş-başa qalmış əhalinin təxliyəsi üçün bir helikopter belə ala bilmədilər.

→ 5

## 38 rayonda arpa biçininə start verilib

### Bu il ölkə üzrə 413,6 min hektarda arpa əkilib

Bu il ölkədə 1019934 hektar sahədə payızlıq taxıl əkini aparılıb. Əkin sahələrinin 606338 hektarı buğda, 413596 hektarı isə arpa sahələridir.

Hazırda Azərbaycanın 38 rayonunda arpa biçini aparılır. Aran rayonlarında arpa biçininin optimal müddətdə başa çatacağı gözlənilir. İyunun ikinci ongünlüyündə isə bu bölgələrdə buğda biçininə start veriləcək.

İyunun 9-na olan operativ məlumata görə, biçin prosesinə 986 taxılbiçən kombayn cəlb olunub. Aktiv biçin prosesində "Aqroservis" ASC-nin yerli bölmələrinin 417, fiziki və hüquqi şəxslərin isə 569 kombaynı iştirak edir. "Aqroservis" ASC tərəfindən biçin gedən rayonlara hazırda biçin aparılmayan dağətəyi və dağlıq ərazilərdə yerləşən bölmələrdən əlavə kombaynlar dislokasiya olunub.

→ 6

## Qeyri-neft məhsullarının ixracı artmaqda davam edir

Azərbaycan iqtisadiyyatında aparıcı sahənin neft-qaz sənayesi olduğu danılmaz faktdır. İxracın mütləq çoxluğu da bu sahənin payına düşür.

Odur ki, dövlət başçısı tərəfindən ölkənin enerji resurslarının satışından asılılığını aradan qaldırmaq üçün qeyri-neft sektorunun inkişafı prioritet istiqamət elan edilmişdir. Bu səbəbdən iqtisadi sahədə islahatların icrası üçün mühüm qərarlar qəbul edilmiş, konkret tədbirlər həyata keçirilmiş, əməli addımlar atılmışdır.

Qeyri-neft sektorunun inkişafında isə sahibkarlığın üzərinə böyük yük düşür. Dövlətin sahibkarların yanında olması, hüquqlarının qorunması, onlara güzəştli kreditlərin verilməsi sayəsində özəl sektor bu gün həmin yükü bacarıqla çəkir. Bunu statistik rəqəmlər də təsdiqləyir: cari ilin yanvar-aprel aylarında sənayedə qeyri-dövlət sektorunun payı 88 faiz olmuşdur. Həmin dövrdə ümumi istehsalın 93,9 faizi sənaye məhsullarının istehsalı, 6,1 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaradılmışdır.

→ 4

## Azarkeşlərin "Formula-1" həyəcanı



→ 7

# Əhalinin etibarlı və dayanıqlı enerji təminatı Prezidentin nəzarətindədir





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda "Azərişıq" ASC-nin 110/35/10 kilovoltluq yeni yarımstansiyasının və Rəqəmsal Şəbəkələrin Baş İdarəetmə Mərkəzinin açılışında iştirak edib.**





AZƏRTAC xəbər verir ki, "Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov dövlət başçısına yeni yarımstansiyada və idarəetmə mərkəzində yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, paytaxtın Yasamal rayonu ərazisində, Füzuli meydanının yaxınlığında tikilən yeni yarımstansiya Bakı şəhərinin sürətlə artan elektrik enerjisi tələbatını qarşılamaq, etibarlılığı və dayanıqlılığı təmin etmək məqsədilə inşa olunub. Həmçinin yarımstansiya şəhərin elektrik təchizatının etibarlılığının və dayanıqlılığının təmin edilməsi məqsədilə perspektivdə yaranacaq yüklərin 220 kilovoltluq "Müşfiq" və "Xırdalan" yarımstansiyaları arasında paylanması və ötürülməsi üçün nəzərdə tutulub. Yeni yaradılacaq 110 kilovoltluq dairəvi sxemin tərkib hissəsinə aid olan yarımstansiyanın əlaqələndirilməsi "Yasamal-1", inşa ediləcək "Təzə Bazar", "Zəfər" və mövcud "Dağlıq" yarımstansiyaları vasitəsilə həyata keçiriləcək. Yarımstansiyada müasir tipli eleqaz avadanlıqları, elektron tipli rele mühafizəsi və avtomatika qurğuları quraşdırılıb.

Bu yarımstansiyanın mövcud və yeni qurulacaq 35 və 10 kilovoltluq şəbəkələrlə əlaqələndirilməsi digər 110 kilovoltluq yarımstansiyalar arasında yaradılacaq dairəvi sxemlərlə şəhərin mərkəzində artacaq yüklərin qarşılanmasını və idarə olunmasını, avtomatlaşdırılmış məsafədən dispetçer idarəetmə sistemi (SCADA) vasitəsilə yüklərin bir mənbədən digər mənbəyə köçürülməsi əməliyyatlarının operativliyini, eyni zamanda elektrik təchizatının dayanıqlılığını təmin edəcək.







Dövlət başçısı "Azərişıq" ASC-nin Rəqəmsal Şəbəkələrin Baş İdarəetmə Mərkəzini işə saldı.

Prezident İlham Əliyevə məlumat verildi ki, rəqəmsal idarəetmənin tətbiqi və ya paylayıcı şəbəkələrin intellektual-rəqəmsal idarə olunması elektrik enerjisinin ötürülməsi və paylanması proseslərinə fasiləsiz nəzarətin həyata keçirilməsini, həmçinin müasir kompüter proqram sistemləri insan amili təsirinin aradan qaldırılmasını təmin edir. Digər tərəfdən, rəqəmsallaşma elektrik şəbəkələri üzrə müəyyənləşdirilmiş beynəlxalq tələblər çərçivəsində iqtisadi səmərəliliyin yaxşılaşdırılması istiqamətində mühüm təyinedici texnoloji vasitədir.

Qeyd olunub ki, "Azərişıq" ASC-nin Rəqəmsal Şəbəkələrin Baş İdarəetmə Mərkəzi Regional Avtomatik İdarəetmə mərkəzləri, 3D-mobil xəritə sistemi, SCADA sistemi, enerji keyfiyyəti göstəricilərinin analiz olunması, ötürücü xətlərdə enerji kəsintiləri və itkilərin müəyyən edilməsi, məsafədən avtomatik sayğacoxuma sistemi, müasir Çağrı mərkəzi, avadanlıqların texniki pasportlaşma sistemi, abonentlərin FİN-kodlaşma sistemi, avtomobillərin (qəza əleyhinə texnika, səyyar sınaq-diaqnostika laboratoriyaları) GPS-mövqe sistemi, alternativ və bərpaolunan enerji mənbələri, paylayıcı şəbəkələrdə zonalar üzrə səmərəli hesabat sistemindən (SAİDİ/SAİFİ) məlumatlar alaraq dərhal analizini aparır, elektrik enerjisi təminatında yaranan fasilələri aradan qaldırmağa, abonent məmnunluğunu təmin etməyə geniş imkanlar yaradır.

## "Əlilliyin və sağlamlıq imkanlarının məhdudluğunun qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 sentyabr tarixli 595 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Əlilliyin və sağlamlıq imkanlarının məhdudluğunun qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 sentyabr tarixli 595 nömrəli Fərmanına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 9, maddə 982) aşağıdakı məzmunda 3-1-ci hissə əlavə edilsin:

"3-1. Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi:

3-1.1. bu Fərmanın 3.1-ci bəndinə əsasən yaradılmış tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin vahid mərkəzləşdirilmiş reyestrinin operatoru funksiyalarını həyata keçirsin və "Elektron hökumət" portalı vasitəsilə real vaxt rejimində aidiyyəti dövlət orqanlarının (qurumlarının) həmin reyestrə çıxışını təmin etsin;

3-1.2. tibbi-sosial ekspertiza müayinəsinə göndərişlər barədə məlumatların real vaxt rejimində Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin "Vahid Səhiyyə İnformasiya Sistemi"nə ötürülməsini təmin etsin.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 iyun 2022-ci il*

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu!

Türkmənistan və Azərbaycan Respublikası arasında diplomatik münasibətlərin yaradılmasının 30 illiyi münasibətilə Türkmənistan xalqı və hökuməti adından, şəxsən öz adımdan Sizə və ölkənizin bütün qardaş xalqına səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Ötən illər ərzində ölkələrimiz arasında mənəvi-mədəni dəyərlərin birliyinə, həmçinin hüquq bərabərliyi və qarşılıqlı hörmət prinsiplərinə əsaslanan ikitərəfli dostluq əlaqələri, o cümlədən qarşılıqlı faydalı tərəfdaşlıq layiqincə inkişaf edir, davamlı olaraq genişlənir.

Hazırda Türkmənistan və Azərbaycan Respublikası siyasi-diplomatik, ticari-iqtisadi və mədəni-humanitar sahələrdə müvəffəqiyyətlə əməkdaşlıq edirlər.

Zamanın sınağından keçmiş faydalı əməkdaşlığın möhkəmlənməsi və inkişafı üçün bundan sonra da lazımi səyləri göstərməyə hazır olduğumuzu təsdiq edirik.

Hörmətli İlham Heydər oğlu, bu xoş fürsətdən istifadə edərək Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik və işlərinizdə yeni müvəffəqiyyətlər, bütün Azərbaycan xalqına isə tərəqqi və rifah arzulayıram.

*Dərin hörmətlə,*

***Sərdar BERDİMƏHƏMMƏDOV,***
***Türkmənistanın Prezidenti***

## Türkmənistanın Prezidenti zati-aliləri cənab Sərdar Berdiməhəmmədova

Hörmətli Sərdar Qurbanquliyeviç!

Bu il biz Azərbaycan Respublikası ilə Türkmənistan arasında əlamətdar ildönümü - diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd edirik. Bu xoş hadisə ilə əlaqədar Sizi ürəkdən təbrik edir, Sizə və qardaş Türkmənistan xalqına ən səmimi arzularımı çatdırıram.

Azərbaycan ilə Türkmənistan arasındakı münasibətlər tarixən dostluq şəraitində yaşamış xalqlarımızın iradəsindən qaynaqlanır. Ortaq tarixə, qardaşlığa və qarşılıqlı hörmətə əsaslanan əlaqələrimizin ötən dövr ərzində dinamik inkişaf edərək keyfiyyətcə yeni səviyyəyə yüksəlməsi və bu gün strateji tərəfdaşlıq xarakteri daşıması xüsusi məmnunluq doğurur.

Qarşılıqlı səfərlər, müntəzəm təmaslar, müxtəlif sahələrdə imzalanan sənədlər, həyata keçirilən birgə layihələr əməkdaşlığımızın genişlənməsində mühüm rol oynamışdır. Siyasi əlaqələrimizin yüksək səviyyəsi iqtisadiyyat, nəqliyyat-logistika, enerji, humanitar və digər sahələrdə səmərəli işbirliyimiz ilə müşayiət olunur. Beynəlxalq təşkilatlar çərçivəsində də münasibətlərimiz uğurla davam edir.

Hesab edirəm ki, Azərbaycan ilə Türkmənistan arasında bütün sahələrdə, xüsusilə nəqliyyat sahəsində əməkdaşlığımızın inkişafı üçün əlverişli şərait mövcuddur. Əminəm ki, bu imkanlardan istifadə edərək birgə səylərimizlə ənənəvi dostluq əlaqələrimizin möhkəmlənməsinə və qarşılıqlı fəaliyyətimizin əhatə dairəsinin daha da genişlənməsinə nail olacağıq.

Sizi bir daha səmimiyyətlə təbrik edir, möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, qardaş Türkmənistan xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

Bakı şəhəri, 10 iyun 2022-ci il

# Nazirlər Kabinetində Azərbaycanın tranzit imkanlarının genişləndirilməsinə dair məsələlər müzakirə edilib

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun sədrliyi ilə ölkəmizin mövcud tranzit imkanlarının inkişafına dair iclas keçirilib.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda sahə üzrə məsul şəxslər, müvafiq nazirliklərin və dövlət şirkətlərinin rəhbərləri iştirak ediblər.

İclas zamanı beynəlxalq yükdaşımalar sahəsində mövcud vəziyyət və proqnozlar təhlil edilib, Azərbaycanın bütün yük kateqoriyaları üzrə buraxıcılıq imkanlarını genişləndirmək üçün hüquqi, administrativ və texniki məsələlər, habelə yükdaşımalar sahəsində iqtisadi səmərəliliyin artırılmasına dair müzakirə aparılıb.

Müvafiq qurumlara konkret tapşırıqlar verilib.




# Azərbaycan Respublikası Dövlət Neft Fondunun Müşahidə Şurasının iclası






İyunun 10-da Azərbaycan Respublikasının Baş naziri, Azərbaycan Respublikası Dövlət Neft Fondunun Müşahidə Şurasının sədri Əli Əsədovun sədrliyi ilə şuranın iclası keçirilib.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasın gündəliyində Dövlət Neft Fondunun 2021-ci ildə fəaliyyəti haqqında illik hesabatı, maliyyə fəaliyyətinin auditinin nəticələri, fondun 2021-ci il büdcəsinin icrası və digər məsələlər müzakirə edilib.

Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2021-ci ildə fəaliyyəti haqqında illik hesabatın, auditin nəticələrinin və 2021-ci il üçün büdcəsinin icrasının Azərbaycan Respublikası Prezidentinə təqdim edilməsi barədə müvafiq qərarlar qəbul olunub.

# Azərbaycanla Avropa İttifaqı arasında münasibətlər uğurla inkişaf edir

İyunun 10-da Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov və Avropa İttifaqı Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin həmsədri Tural Gəncəliyev Avropa Parlamentinin Nəqliyyat və turizm komitəsinin sədr müavini Andris Ameriks ilə görüşüblər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonağı salamlayan komitə sədri Səməd Seyidov Azərbaycanın Avropa İttifaqı (Aİ) ilə əlaqələrindən söz açıb, bu münasibətlərin hər iki tərəfin maraqları əsasında qurulduğunu və qarşılıqlı etimada söykəndiyini qeyd edib. O, Azərbaycan Prezidenti İlham Əliyevin və Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin bu münasibətlərə böyük önəm verdiklərini diqqətə çatdırıb. Aİ ölkələri ilə ticarət əlaqələrindən danışan komitə sədri Azərbaycanın xarici ticarət dövriyyəsinin böyük hissəsinin Aİ üzvü olan ölkələrin payına düşdüyünü vurğulayıb.

Avropa Parlamentinin Nəqliyyat və turizm komitəsinin sədr müavini Andris Ameriks Azərbaycana bundan əvvəlki səfərini xatırlayıb, ölkəmizdə sürətli inkişafın şahidi olduğunu diqqətə çatdırıb. O, Azərbaycanın dayanıqlı xarici siyasəti, Avropanın enerji təhlükəsizliyində iştirakı, Avropa üçün etibarlı tərəfdaş olması ilə bağlı fikirlərini bölüşüb.

Söhbət zamanı Azərbaycanın Belçikadakı səfiri Vaqif Sadıqov Azərbaycanla Aİ arasında yeni ikitərəfli sazişin hazırlığı barədə məlumat verib.

Görüşdə Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması prosesi, regionda sülhün möhkəmləndirilməsi və qarşılıqlı iqtisadi əməkdaşlığın inkişafı, Azərbaycanla Aİ arasında yeni sazişin bağlanması istiqamətində görülən işlər, Azərbaycan və Aİ arasında münasibətlərin inkişafı perspektivləri və tərəfləri maraqlandıran digər məsələlər barədə müzakirələr aparılıb.

❖ ❖ ❖

İyunun 10-da Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili Avropa Parlamentinin Nəqliyyat və turizm komitəsinin sədr müavini Andris Ameriks ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri qonağı salamlayaraq Azərbaycanla Avropa İttifaqı arasında münasibətlərin uğurla inkişaf etdiyini deyib. Bildirib ki, ölkəmizlə bu mötəbər qurum arasında əlaqələrin genişlənməsində parlamentlərarası münasibətlər böyük əhəmiyyət daşıyır. Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlığı Komitəsi çərçivəsində səmərəli əməkdaşlıq qurulub. Ölkəmizdə Avropa standartlarına uyğun qanunvericilik bazası formalaşdırılıb.

Söhbətdə Azərbaycanla Avropa İttifaqı arasında qarşılıqlı faydalı siyasi, iqtisadi sahələrdə əməkdaşlığın genişlənməkdə olduğu qeyd edilib. Ölkəmizdə həyata keçirilən islahatlardan, Azərbaycanın təşəbbüskarı və iştirakçısı olduğu qlobal layihələrdən, əldə olunmuş nailiyyətlərdən söhbət açılıb. Komitə sədri qonağa ölkəmizdə yaradılmış Ələt Azad İqtisadi Zonası haqqında məlumat verib, Azad zonanın yaradılmasında məqsəd, onun fəaliyyəti, potensial imkanları barədə danışıb.

Görüşdə Tahir Mirkişili 44 günlük Vətən müharibəsində Azərbaycanın əldə etdiyi şanlı qələbədən söhbət açıb. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun torpaqlarımızı 30 illik erməni işğalından azad etdiyini, ərazi bütövlüyümüzün bərpa olunmasını diqqətə çatdırıb. O, postmünaqişə dövründə yaranmış reallıqlardan danışıb. İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma işlərindən bəhs edib. Komitə sədri Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması və ölkəmiz tərəfindən təqdim olunan prinsiplər əsasında sülh müqaviləsinin imzalanması məsələsinə toxunub.

Avropa Parlamentinin Nəqliyyat və turizm komitəsinin sədr müavini Andris Ameriks qonaqpərvərliyə və səmimi söhbətə görə minnətdarlığını ifadə edib. Ölkəmizin zəngin tarixə, mədəniyyətə malik olduğunu deyən qonaq Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyindən danışıb.

Andris Ameriks ölkəmizdə müşahidə etdiyi iqtisadi yüksəlişin onda böyük təəssürat yaratdığını bildirib. Ölkəmizin həyata keçirdiyi enerji, nəqliyyat layihələrinin əhəmiyyətli olduğunu söyləyib. Qeyd edib ki, Azərbaycan həm geosiyasi nöqteyi-nəzərdən, həm də iqtisadi baxımdan Avropanın daim diqqət mərkəzində olan bir ölkədir. Avropa İttifaqı Azərbaycanla əməkdaşlığa böyük önəm verir.

*"Azərbaycan"*

# Beynəlxalq Avtomobil Federasiyası ilə Azərbaycan Avtomobil Federasiyası arasında əməkdaşlıq məsələləri müzakirə olunub

"Formula-1" üzrə dünya çempionatının səkkizinci mərhələsi - Azərbaycan Qran-prisi çərçivəsində ölkəmizə gələn Beynəlxalq Avtomobil Federasiyasının (FIA) prezidenti, ralli üzrə keçmiş pilot Mohammad ben Sulayem Azərbaycan Avtomobil Federasiyasının (AAF) prezidenti Anar Ələkbərov ilə görüşüb.





AZƏRTAC xəbər verir ki, görüşdə FIA ilə AAF arasında sıx əməkdaşlığın formalaşdığı, bir sıra birgə layihələrin həyata keçirildiyi qeyd edilib, qarşılıqlı əməkdaşlığın inkişafı məsələləri müzakirə olunub. Həmçinin Azərbaycanda avtomobil idmanının inkişafı istiqamətində görülən işlər və reallaşdırılan layihələr barədə məlumat verilib, AAF-ın yol hərəkəti təhlükəsizliyi, avtomobil turizmi ilə bağlı layihələri müzakirə edilib.

Sonra FIA prezidenti "Formula-1" Azərbaycan Qran-prisinə hazırlıqlarla yerində tanışlıq üçün şəhər trekində olub.

AAF prezidenti Anar Ələkbərovun və "Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin icraçı direktoru Arif Rəhimovun iştirakı ilə keçirilən görüşdə şəhər trekinin yarışa tam hazır olduğu bildirilib.

# Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Ali Hərbi Məktəbində növbəti buraxılış olub

İyunun 10-da Daxili İşlər Nazirliyinin (DİN) Daxili Qoşunlarının Ali Hərbi Məktəbində 2021-2022-ci tədris ilinin buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilib.

DİN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə respublikanın daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iştirak edib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və vətənimizin suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş, xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı canlarından keçən hərbi qulluqçuların və polis əməkdaşlarının əziz xatirəsi yad edilib, Azərbaycanın Dövlət Himni səsləndirilib.

Nazir müavini - Daxili Qoşunların komandanı general-leytenant Şahin Məmmədov məzunların buraxılış mərasiminin Ali Hərbi Məktəbin həyatında əlamətdar hadisələrdən biri olduğunu diqqətə çatdıraraq təhsil müəssisəsinin inkişaf yolu, maddi-texniki və tədris bazasının gücləndirilməsi istiqamətində görülən işlər və qarşıda duran vəzifələr barədə məruzə edib.



Gənc zabitlər önündə çıxış edən nazir Vilayət Eyvazov məmnunluqla bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Daxili Qoşunların döyüş hazırlığının yüksəldilməsini daim nəzarətdə saxlayıb, müasir silah və texnika ilə təminatı, şəxsi heyətinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində bir çox vacib qərarlar qəbul edib. Məhz bu ali diqqətin nəticəsidir ki, Daxili Qoşunlar qarşıya qoyulan xidməti-döyüş tapşırıqlarını yüksək səviyyədə yerinə yetirməyə qadir silahlı birləşməyə çevrilib.

General-polkovnik V.Eyvazov Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm qələbə ilə nəticələnən Vətən müharibəsində Daxili Qoşunların hərbi qulluqçularının da ön cəbhədə iştirak edərək qəhrəmanlıq və vətənpərvərlik nümunələri göstərdiyini, onların arasında Ali Hərbi Məktəbin də məzunlarının olmasını bu təhsil müəssisəsində kursantların dövlətə, xalqa, hərbi anda sədaqət ruhunda formalaşması üçün ortaya qoyulmuş əzmkar fəaliyyətin əyani təsdiqi olduğunu vurğulayıb.

O, qələbədən sonrakı dövrdə Daxili Qoşunların şəxsi heyətinin işğaldan azad olunmuş ərazilərdə polis əməkdaşları ilə birgə xidmət etmələrini də məmnunluqla qeyd edib.

Daxili Qoşunlar üçün yüksəkixtisaslı kadrların hazırlanmasında danılmaz roluna, təmənnasız yardımlarına görə qardaş Türkiyə Respublikasının Jandarma Qüvvələri Baş Komandanlığına, hərbi mütəxəssislərinə təşəkkürünü bildirən nazir V.Eyvazov bu işdə digər ölkələrin də oxşar təhsil müəssisələri ilə işgüzar əlaqələrin əhəmiyyətini vurğulayıb.

Məzunların həyatında yeni dövrün başladığını nəzərə çatdıran daxili işlər naziri gənc zabitləri, onların valideynlərini və yaxınlarını Ali Hərbi Məktəbi müvəffəqiyyətlə bitirmələri münasibətilə təbrik edib, Daxili Qoşunlar üçün peşəkar kadrlar hazırlayan bu ali təhsil ocağının rəhbərliyinə və zabit-müəllim heyətinə təşəkkürünü bildirib, fəaliyyətlərində onlara uğurlar arzulayıb.

Çıxışının sonunda daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevi əmin edib ki, daxili işlər orqanlarının və Daxili Qoşunların şəxsi heyəti bundan sonra da xalqa və dövlətə sədaqətlə xidmət edəcək, qarşıya qoyulmuş tapşırıqların tam və layiqincə yerinə yetirilməsi üçün var qüvvəsi ilə çalışacaq.

# MDB Gənclər Parlamentlərarası Forumu və MDB Gənclər Parlamentlərarası Assambleyasının iclası keçirilib

İyunun 9-da Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində MDB Gənclər Parlamentlərarası Forumu keçirilib. Tavriya sarayında keçirilən tədbirə Milli Məclisin deputatı, MDB-yə üzv dövlətlərin Gənclər Parlamentlərarası Assambleyasının koordinatoru Emin Hacıyev sədrlik edib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Emin Hacıyev iclası açaraq diqqətə çatdırıb ki, forumda "Gənc parlamentarilər - MDB-nin gələcəyinə baxış" mövzusunda müzakirələr aparılacaq. O, cari ilin öz 10 illiyini qeyd edən MDB Gənclər Parlamentlərarası Assambleyası və 30 illiyini qeyd edən MDB Parlamentlərarası Assambleyası üçün əlamətdar olduğunu bildirib. Emin Hacıyev bu yubileylər münasibətilə forum çərçivəsində təşkil olunmuş tədbirlər və digər mövzularda keçiriləcək toplantılar barədə məlumat verib.

İclasda MDB-yə üzv dövlətlərin spikerlərinin MDB Gənclər Parlamentlərarası Forumunun iştirakçılarına salamlama nitqləri səsləndirilib.

Milli Məclisin Sədri Sahibə Qafarovanın forum iştirakçılarına ünvanladığı salamlama nitqini Emin Hacıyev diqqətə çatdırıb.

Tədbirə sədrlik edən Emin Hacıyev bildirib ki, forumun məqsədi parlamentlərarası gənclər əməkdaşlığının inkişafı, habelə gənclərin hüquq və maraqlarını əhatə edən beynəlxalq gənclər siyasəti və qanunvericilik fəaliyyəti sahəsində əsas istiqamətlərin müəyyənləşdirilməsi ilə bağlı təcrübə mübadiləsinin aparılmasıdır.

İclasda MDB İcraiyyə Komitəsi tərəfindən Müstəqil Dövlətlər Birliyində beynəlxalq gənclər əməkdaşlığına həsr olunmuş məruzə təqdim edilib. Sonra forum öz işini müxtəlif mövzularda seksiyalarda davam etdirib.

Forum çərçivəsində təşkil olunmuş "dəyirmi masa"larda "MDB-də gənclər parlamentarizmi: gənclər parlament strukturlarının təcrübəsi və beynəlxalq əməkdaşlığın genişləndirilməsi", "Gənclərin ictimai diplomatiyası: regionlararası əməkdaşlıq və MDB ölkələrinin ortaq maraqları" və digər mövzularda məruzələr dinlənilib.

Tədbirə onlayn formatda qoşulan Milli Məclisin deputatı Nigar Arpadarai gənclər siyasəti və gənclərin hüquqlarının və maraqlarının təmin edilməsi sahəsində qanunvericiliyin aktual istiqamətləri mövzusunda çıxış edib.

***

İyunun 10-da Milli Məclisin deputatı Emin Hacıyevin koordinatoru olduğu MDB Gənclər Parlamentlərarası Assambleyasının 18-ci iclası keçirilib. İclasda MDB-yə üzv ölkələrdə "Mənim nəsil şəcərəm" müsabiqəsinin keçirilməsi, dövlət gənclər siyasəti məsələlərinə dair milli qanunvericiliyin təkmilləşdirilməsi və uyğunlaşdırılması üzrə tövsiyələrin hazırlanması və digər məsələlər ətrafında müzakirələr aparılıb.

Milli Məclisin deputatı Könül Nurullayeva tədbirə onlayn formatda qoşularaq mədəni irsin qorunması və xalq yaradıcılığının inkişafında gənclərin rolu mövzusunda fikirlərini bölüşüb.

*"Azərbaycan"*

# Qətiyyətli siyasətin təcəssümü

## Azərbaycan bütün məsələlərdə milli maraqlarını inamla təmin edir



**Azərbaycanı qlobal miqyasda nüfuzlu dövlət kimi tanıdan amillərdən biri respublikamızın hər zaman özünün milli maraqlarını qətiyyətlə təmin etməsidir.**

Hələ 28 il əvvəl "Əsrin müqaviləsi"ndən başlamış müstəqilliyimizi və dövlətçiliyimizi şərəfləndirən digər hadisələrə - Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinə, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinə, "Cənub qaz dəhlizi"nin yaradılmasına qədər keçilən yol ilk növbədə Azərbaycan dövlətinin öz maraq və mənafelərin inamla reallaşdırmasının tarixi salnaməsidir.

### Dünyanın qəbul etdiyi reallıq

Bütün bu gerçəkliklərin zirvəsi isə 2020-ci ilin Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsidir. Bu müharibədə Azərbaycan sadəcə Ermənistana və onun azsaylı xalqına deyil, bütövlükdə dünya erməniliyinə, onları dəstəkləyən qüvvələrə qalib gəldi. Bu müharibədə Azərbaycan Minsk qrupunun 28 ildə məqsədli şəkildə həll etmək istəmədiyi problemi güc yolu ilə yoluna qoydu. Prezident İlham Əliyev Azərbaycanın milli haqqını, beynəlxalq səviyyədə təsbit olunan hüquqlarını Ermənistanı dəstəkləyən dairələrin elə gözü qarşısında sərkərdə qətiyyəti ilə təmin etdi.

Beləliklə, Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunması Azərbaycanın öz milli mənafelərini qətiyyətlə reallaşdırmasının ən möhtəşəm təcəssümü oldu. Bu zəfərin fonunda belə bir həqiqət də öz təsdiqini tapdı ki, güclü və müdrik lideri olan dövlət qarşısında dayanan bütün məqsədlərə çata bilir.

Vətən müharibəsindən sonra da Azərbaycan öz milli maraq və mənafelərini qətiyyətlə həyata keçirməkdə davam edir. Bu çərçivədə ən böyük uğur beynəlxalq ictimaiyyətin 44 günlük müharibədən sonra regionda yaranmış yeni reallıqları tam bölüşməsidir. Bu isə öz növbəsində Azərbaycanın Vətən müharibəsindəki qələbəsinin qəbul olunması və torpaqlarımızın işğaldan azad edilməsinə göstərilən beynəlxalq ehtiramdır.

Hazırda Qarabağ və Şərqi Zəngəzurda sürətli bərpa və quruculuq işləri davam edir. Azərbaycan dövləti 30 ilə yaxın müddətdə ermənilər tərəfindən dağıdılmış, vandallığa məruz qalmış kənd və şəhərlərini qətiyyətlə, əzmlə bərpa edir. Bir çox xarici dövlətlərin öz şirkətlərinin bərpa prosesində iştiraka hazır olduqlarını bəyan etmələri də Azərbaycanın haqq işinə olan beynəlxalq ehtiramın nümunəsidir.

### Ermənistanın prosesləri ləngitmək cəhdləri iflasa məhkumdur

Vətən müharibəsinin başa çatmasından sonra da dövlətimiz siyasi-diplomatik sferada qətiyyətli fəaliyyətini davam etdirir. Söhbət ilk növbədə Ermənistanın 10 noyabr üçtərəfli Bəyanatı üzrə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsindən, Brüssel prosesi üzrə üzərinə götürdüyü yeni öhdəlik və razılaşmalara əməl etməsindən gedir.

Xatırladaq ki, ötən ay Brüsseldə keçirilən növbəti üçtərəfli görüşdə razılaşdırılan bütün məsələlər prosesin Azərbaycanın milli maraq və mənafelərinə uyğun getdiyini göstərdi. Məsələn, görüşdə Ermənistanın hələ 10 noyabr Bəyanatında üzərinə götürdüyü öhdəliyə uyğun olaraq kommunikasiya ilə əlaqədar nəqliyyat əlaqələrinin açılması istiqamətində işlərin davam etdirilməsi zərurətindən bəhs olunub. Tərəflər Azərbaycanın qərb hissəsi ilə Naxçıvan arasında tranzitləri, habelə hər iki ölkənin kommunikasiya infrastrukturu vasitəsilə beynəlxalq nəqliyyat daşımalarını tənzimləyəcək prinsiplər üzərində razılığa gəliblər. Azərbaycanın növbəti siyasi-diplomatik uğuru olan üçüncü Brüssel görüşü həm də onu təsdiq etdi ki, Ermənistanın müxtəlif iddialarla üçtərəfli razılaşmaların tələb etdiyi prosesləri ləngitmək cəhdləri iflasa məhkumdur.

### Delimitasiya prosesi dövlət sərhədini əhatə edir

"Brüssel prosesi" çərçivəsində danışıqların əsas istiqamətini sərhədlərin delimitasiyası təşkil edib. Bu məsələdə əldə edilmiş razılaşmaların həyata keçirilməsi çərçivəsində ötən ay Ermənistan-Azərbaycan dövlətlərarası sərhədində Azərbaycanla Ermənistan arasında sərhədin delimitasiyası üzrə komissiya formatında ilk görüş keçirilib. Görüşdə tərəflər delimitasiya və digər məsələlər üzrə komissiya çərçivəsində işləməyə hazır olduqlarını təsdiq ediblər.

Qeyd edək ki, Azərbaycan və Ermənistan tərəfindən təsis edilmiş delimitasiya komissiyalarının fəaliyyəti əvvəlcədən nəzərdə tutulduğu kimi məhz iki ölkənin dövlət sərhədinin delimitasiyası məqsədini güdür. Bu proses çərçivəsində Azərbaycan-Ermənistan dövlət sərhədindən kənar hər hansı bir məsələyə, o cümlədən Azərbaycan Respublikasının Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərlə bağlı məsələyə baxılması nəzərdə tutulmur.

Qalib Azərbaycan Ordusu müharibədən sonra da qarşısında duran vəzifələri layiqincə yerinə yetirir. Ölkəmizin suveren ərazilərinin tərkib hissəsi olan Fərrux kəndi və ətraf yüksəkliklərdəki mövqelərdə də Azərbaycan bayrağı dalğalanır.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Vətən borclu qalmır

## Şəhid ailələri və qazilər dövlətin hər cür dəstəyi ilə əhatə olunmuşlar

Vətən müharibəsində yaralanmış hərbçilərin əlilliyinin qiymətləndirilməsi, reabilitasiya xidmətləri və vasitələri ilə təminatı, əlillik sahəsində tətbiq olunacaq yeni meyarlara dair Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi keçirdiyi mətbuat konfransında ətraflı məlumat vermişdir.

Qeyd edək ki, müharibədən sonra aidiyyəti qurumların nümayəndələrindən ibarət komissiya müharibədə yaralanmış qazilərin əlilliyinin qiymətləndirilməsi üçün operativ sənədləşdirmə işlərini yerinə yetirmişdir. Yekun mərhələ kimi Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi müalicə müddəti başa çatmış qazilərin əyani müayinələr əsasında əlilliyinin qiymətləndirilməsini aparmış və artıq 3 min qaziyə əlillik və sosial ödənişlər təyin olunmuşdur.

Mətbuat konfransında bildirilmişdir ki, ümumilikdə son 3 ildə 160 mindən çox əlillik təyinatı həyata keçirilmiş, 2021-ci il və cari il ərzində 91 min şəxsə əlillik təyin edilmişdir. Ümumiyyətlə, ölkəmizdə qazilərə xüsusi qayğıkeşliklə yanaşılır. Onların keyfiyyətli reabilitasiya xidmətləri ilə təmin edilməsi üçün son illər müasir tələblərə cavab verən 12 reabilitasiya müəssisəsi qurulmuşdur. Həmin mərkəzlərdə 2500 qaziyə səmərəli reabilitasiya və sosial-psixoloji xidmətlər göstərilmişdir. Bu da postmüharibə dövründə kombataente sindromundan əziyyət çəkən qazilərimiz üçün ciddi dəstəkdir.

Bundan əlavə, 44 günlük Vətən müharibəsində yaralanaraq əzalarını itirmiş 200 qazinin, ümumilikdə 300 müharibə əlilinin yüksəktexnologiyalı son nəsil protezlərlə təminatı proqramı uğurla icra olunmuş, 1400-dən çox müharibə əlili 19,3 mindən çox reabilitasiya vasitəsi ilə təmin edilmişdir.

Ən vacib məqamlardan biri də 2022-ci il iyulun 1-dən ölkəmizdə əlillik sahəsində yeni meyarların tətbiq olunmasıdır. Əlillik artıq 3 dərəcə üzrə məhdud çərçivədə deyil, yeni qaydalara əsasən orqanizmin funksiyalarının itirilməsi faizinin müəyyən edilməsi əsasında, daha əhatəli şəkildə qiymətləndiriləcək. Şəxsin özünəqulluq, sərbəst hərəkətetmə, istiqamət seçmə, ünsiyyət, davranışına nəzarət etmə, öyrənmə və əmək fəaliyyəti üzrə insanın həyat fəaliyyətinin 7 əsas kateqoriyasının vəziyyəti əsas götürüləcək.

Dövlətin qazilər üçün tətbiq etdiyi yeniliklər bununla da bitmir. Çünki cari ilin 5 ayının göstəricilərində pensiya, müavinət, təqaüd, ünvanlı dövlət sosial yardımı üzrə ödənişlərdə artım dinamikası müşahidə olunur. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu tərəfindən həmin dövrdə qeyd olunan istiqamətlər üzrə əhaliyə 2 milyard 717 milyon manat vəsait ödənilmişdir ki, bu da ötən ilin eyni dövrünə nisbətən 7,8 faiz və ya 198 milyon manat çoxdur.

Bu yerdə onu da bildirək ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tez-tez səyyar qəbullar və görüşlər keçirir. Məqsəd sosial müdafiəyə ehtiyacı olan insanları maksimum qayğıkeşliklə əhatə etmək, onların irad və şikayətlərinə zamanında reaksiya verməkdir. Məsələn, elə bir neçə gün əvvəl əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov Siyəzən rayonunda Siyəzən və Şabran rayonlarının sakinlərini qəbul etmiş, nazirliyin səlahiyyət çərçivəsinə daxil olan vətəndaş müraciətlərini dinləmiş, imkan daxilində zəruri tədbirlər görmüş, vətəndaş sorğuları ilə bağlı izahatlar vermişdir.

Ən maraqlı faktlardan biri də odur ki, Vətən müharibəsindən sonra Dövlət Məşğulluq Agentliyi 12 mindən çox şəhid ailəsi və qazini aktiv məşğulluq proqramlarına cəlb etmişdir. Agentliyin sədri Mustafa Abbasbəyli postmüharibə dövründə nazirlik tərəfindən şəhid ailələri və qazilərlə bağlı icra olunan sosial dəstək paketinin artıq 100 min şəxsi əhatə etdiyini, onlara 190 min xidmət göstərildiyini bildirmişdir.

Vətən müharibəsi şəhidlərinin ailə üzvləri və müharibə iştirakçılarının aktiv məşğulluq proqramlarına cəlb edilməsi işləri bu gün də davam edir. Qeyd etmək yerinə düşər ki, şəhid ailəsi üzvləri və Vətən müharibəsində yaralanmış qazilərin məşğulluğuna dəstək məqsədi daşıyan "Məşğulluq marafonu"na qoşulan 646 işəgötürən 4538 vakansiya təqdim etmiş, marafon çərçivəsində 2366 şəxs artıq işlə təmin olunmuşdur. Onlardan 1973 nəfəri qazi, qalanları şəhid ailələrinin üzvləridir.

Dövlət Tibbi Ekspertiza və Reabilitasiya Agentliyinin sədri Anar Bayramov və Dövlət Məşğulluq Agentliyinin sədri Mustafa Abbasbəyli bir neçə gün əvvəl bir qrup Vətən müharibəsi qazisi ilə görüşmüşlər. Qazilər görüşdə ölkədə müharibə veteranları ilə bağlı ardıcıl həyata keçirilən sosial dəstək tədbirlərini razılıqla qarşıladıqlarını ifadə etmiş, bunu dövlətin artan qayğıkeşliyinin təzahürü kimi qiymətləndirmişlər.

Görüşdə bildirilmişdir ki, əlilliyin qiymətləndirilməsi prosedurları şəffaf və obyektiv, qəbul olunan qərarlar ədalətlidir. Yeri gəlmişkən, bu ilin 5 ayında əvvəlki illərin müvafiq dövrləri ilə müqayisədə 2-3 dəfə çox əlillik dərəcəsi təyin edilmişdir. Sonda onu qeyd edək ki, dövlətin və cəmiyyətin qazilərimizə belə həssas yanaşması müsbət nəticələr verir. Qazilər belə görüşlərin ardıcıl təşkil olunmasını müsbət hal kimi dəyərləndirir və onların davam etdirilməsini istəyirlər.

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*

# MOK rəsmiləri AOK-un 51-ci Baş Assambleyasının iclasında iştirak edirlər

İyunun 10-11-də Makedoniyanın Skopye şəhərində Avropa Olimpiya Komitəsinin 51-ci Baş Assambleyasının iclası keçirilir.

Şimal Makedoniya MOK-un prezidenti Daniel Dimeski, AOK-un prezidenti Spiros Kapralos, BOK-un prezidenti Tomas Baxın iştirak etdiyi iclasda "Paris-2024" Yay Olimpiya Oyunları, "Milano Kartina-2026" Qış Olimpiya Oyunları müzakirə olunacaq. Həmçinin 3-cü Avropa Oyunları - "Krakov və Malopolska-2023" Təşkilat Komitəsinin və "Pekin-2022" üzrə BOK təşkilat komitəsinin hesabatları dinləniləcək.







AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, Baş katib Azər Əliyev və MOK Beynəlxalq əlaqələr idarəsinin müdiri Anar Bağırov da AOK-un 51-ci Baş Assambleyasının iclasında iştirak edirlər. Baş Assambleyanın iştirakçılarına AOK prezidenti Spiros Kapralos, AOK Baş katibi Rafael Paqnozi tərəfindən hesabatlar da təqdim olunacaq. AOK-un 2021-ci il maliyyə hesabatı, 2023-cü ilin büdcəsi, xarici auditorların təyinatı və AOK komissiyalarının hesabatları da iclasın gündəliyinə salınıb.

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2022-ci ilin iyun ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Zaur Mikayılov iyunun 10-da Cəlilabad şəhərində Cəlilabad, Biləsuvar və Cəbrayıl rayonlarının sakinlərini qəbul edib.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri Zaur Mikayılov Cəlilabad Suvarma Sistemləri İdarəsinin inzibati binasında vətəndaşlarla görüşüb, onların müraciətlərini dinləyib.

Müraciətlər əsasən suvarma suyuna olan tələbatın ödənilməsi, suvarma kanallarının beton üzlüyə alınması, nasos stansiyalarının quraşdırılması, nov kanallarının çəkilməsi, suburaxıcı qurğuların tikilməsi, kanalların lildən təmizlənməsi, subartezian quyuların qazılması, həmçinin cəmiyyətin səlahiyyətlərinə aid olmayan müxtəlif məsələləri əhatə edib.

Qəbulda hər bir vətəndaşın müraciətini dinləyən Zaur Mikayılov şikayətlərin qısa müddətdə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə məsul işçilərə müvafiq tapşırıqlar verib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, araşdırılmasına ehtiyac olan müraciətlər nəzarətə götürülüb.

Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasına, o cümlədən göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# Qeyri-neft məhsullarının ixracı artmaqda davam edir

**Azərbaycan iqtisadiyyatında aparıcı sahənin neft-qaz sənayesi olduğu danılmaz faktdır. İxracın mütləq çoxluğu da bu sahənin payına düşür.**

Odur ki, dövlət başçısı tərəfindən ölkənin enerji resurslarının satışından asılılığını aradan qaldırmaq üçün qeyri-neft sektorunun inkişafı prioritet istiqamət elan edilmişdir. Bu səbəbdən iqtisadi sahədə islahatların icrası üçün mühüm qərarlar qəbul edilmiş, konkret tədbirlər həyata keçirilmiş, əməli addımlar atılmışdır.

Qeyri-neft sektorunun inkişafında isə sahibkarlığın üzərinə böyük yük düşür. Dövlətin sahibkarların yanında olması, hüquqlarının qorunması, onlara güzəştli kreditlərin verilməsi sayəsində özəl sektor bu gün həmin yükü bacarıqla çəkir. Bunu statistik rəqəmlər də təsdiqləyir: cari ilin yanvar-aprel aylarında sənayedə qeyri-dövlət sektorunun payı 88 faiz olmuşdur. Həmin dövrdə ümumi istehsalın 93,9 faizi sənaye məhsullarının istehsalı, 6,1 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaradılmışdır.



Prezident İlham Əliyev iyunun 1-də Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 27-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin açılış mərasimində demişdir: "Burada qeyd etdiklərimin hamısı daxili inkişafımız üçün də çox əhəmiyyətlidir. Enerji amili, enerji diplomatiyası və bütün layihələr bizim iqtisadi potensialımızı gücləndirir, bizə imkan yaradır ki, cəsarətli islahatlarla yanaşı, neft-qaz sektorundan əldə etdiyimiz gəlirlər iqtisadiyyatımızın qeyri-neft sektoruna yönəldilsin". Dövlət başçısı həmçinin vurğulamışdır ki, bu islahatlar sayəsində cari ildə ümumi daxili məhsul istehsalı 7,2 faiz artıb. Qeyri-neft sektorunda 11,5, o cümlədən qeyri-neft sənayesində 15 faiz artım olub.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzindən verilən məlumata görə, bu ilin yanvar-may ayları ərzində Azərbaycanın ixracının dəyəri 15,4 milyard, o cümlədən qeyri-neft sektoru üzrə 1,2 milyard dollar təşkil edib. Qeyri-neft sektoru üzrə ixracın dəyəri ötən illə müqayisədə 280,6 milyon dollar artıb.

Həmin dövrdə meyvə-tərəvəz məhsullarının ixracının dəyəri ötən ilin eyni dövrü ilə müqayisədə 6,4 faiz artaraq 219,2 milyon dollara çatıb. Kimya sənayesi məhsullarının ixracı 8, alüminium və ondan hazırlanan məmulatların ixracı 2 dəfə, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 49,8, pambıq iplik ixracı 23,7, pambıq lifi ixracı isə 14,5 faiz artıb.

İqtisadiyyat Nazirliyindən verilən məlumata görə, sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən cari ilin yanvar-aprel aylarında 27,4 milyard manatlıq və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,7 faiz çox sənaye məhsulları istehsal edilib. Məhsul istehsalı qeyri neft-qaz sektorunda 15,1 faiz artıb. Ümumiyyətlə, emal sektoru üzrə avtomobil, qoşqu və yarımqoşquların istehsalı 2,5, əczaçılıq məhsullarının istehsalı 2 dəfə, tikinti materiallarının istehsalı 72,3, elektrik avadanlıqlarının istehsalı 60,8, mebel istehsalı 58,4, geyim istehsalı 55,4, kimya sənayesi məhsullarının istehsalı 52,2, hazır metal məmulatlarının istehsalı 34,3, maşın və avadanlıqların istehsalı 30,8, poliqrafiya məhsullarının istehsalı 30,3 faiz yüksəlib. Eləcə də həmin dövrdə metallurgiya sənayesi məhsullarının istehsalında 27,9, kağız və karton istehsalında 26,1, rezin və plastik kütlə məmulatlarının istehsalında 20, qida məhsullarının istehsalında 8,5, ağacın emalı və ağacdan məmulatların istehsalında 5,8 faiz artım qeydə alınıb.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Pensiya, müavinət, təqaüd və ünvanlı yardım üzrə əhaliyə 2,7 milyard manatdan çox vəsait ödənilib

Cari ilin yanvar-may aylarında pensiya, müavinət, təqaüd, ünvanlı dövlət sosial yardımı üzrə ödənişlərdə artım dinamikası davam edib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu tərəfindən həmin dövrdə qeyd olunan istiqamətlər üzrə əhaliyə 2 milyard 717 milyon manat vəsait ödənilib.

Bu barədə AZƏRTAC-a nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən məlumat verilib.

Bildirilib ki, bu da ötən ilin eyni dövrünə nisbətən 7,8 faiz və ya 198 milyon manat çoxdur.

Qeyd edək ki, növbəti islahat paketi olaraq cari ilin əvvəlindən əməkhaqqı, pensiya və müavinətlərin, təqaüdlərin növbəti dəfə artırılması təmin edilib.

# Azərbaycan-Türkiyə birliyinin gücü

**Dünya yeni çağırışlarla üzüzədir. Ölkələrin, cəmiyyətlərin həyatında, beynəlxalq münasibətlər sistemində çox şeylər dəyişir. Dəyişməyən bircə amil varsa, o da güc amilidir ki, o da hər zamankı kimi yenə də həlledici əhəmiyyət daşımaqdadır.**



Müasir dünyamızda dövlətlərin gücü həm də onların texnologiyalara münasibətilə müəyyənləşir. Bu sahəyə edilən yatırımlar, potensiallarını reallaşdırmaqdan ötrü istedadlı insanlara verilən dəstək, yaradılan şərait, xüsusilə gənclərin elmə-biliyə ruhlandırılması, ordu quruculuğunda yeni texnologiyalardan istifadə ölkələri daha güclü edir. Ötən ay ilk dəfə Azərbaycanda keçirilən "TEKNOFEST-Azərbaycan" Aerokosmik və Texnologiya Festivalı bu baxımdan tarixi hadisə oldu. Cəmiyyətin diqqətini bir çox həqiqətlərə yönəltdi. Bunlardan birincisi, texnologiyaların artıq ölkələrin müstəqilliyinin möhkəmləndirilməsində də ciddi rolu ilə bağlıdır. İstənilən ölkənin tam müstəqilliyi üçün güclü iqtisadiyyata malik olması mütləqdir. Müasir dünyamızda isə güclü iqtisadiyyat məhz modern texnologiyalar sayəsində təmin edilir. Azərbaycanın biliklər iqtisadiyyatına, texnologiyalara verdiyi önəm, bu istiqamətdə də qardaş Türkiyə ilə birgə irəliləməsi müstəqilliyimizi daha da möhkəmləndirir, əbədi və dönməz edir. Bizi dünya dövlətləri arasında önə çıxarır.

## Gəncliyə xitab

"TEKNOFEST-Azərbaycan" Festivalının daha bir mühüm məqamı isə bu tədbirdə iştirak edən Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın nitqlərində gəncliyə xitablarıdır. Onları elmə, biliyə, yaradıcı potensiallarını reallaşdırmağa ruhlandırmalarıdır.

Tədbirdə dünyaşöhrətli alim, Nobel mükafatı laureatı Əziz Səncərin və "TEKNOFEST"in təşkilatçısı, İkinci Qarabağ savaşında öz sözünü demiş məşhur "Bayraktar" pilotsuz uçuş aparatının ixtiraçısı Selçuk Bayraktarın iştirakı, onların maraqlı, motivasiya dolu çıxışları da bunun bir təzahürü idi. Bütün bunlar Azərbaycan və Türkiyə dövlətlərinin elmə, alimə verdikləri ali dəyəri, gələcəyini elm işığında qurmaq əzmini göstərir. Burada eyni zamanda nəsillərin vəhdəti, məqsədyönlü əməlləri ilə bir-birini tamamlaması həqiqəti üzə çıxır. Onlar bu festivalda Azərbaycan və Türkiyə gəncliyinə örnək göstərirdilər. Azərbaycan Prezidenti çıxışında bu məqamı xüsusi qeyd etdi: "Əziz Səncər kimi insanlar gənclər üçün örnəkdir, nümunədir - həm alim, həm vətəndaş, həm türkçü, həm vətənpərvər insan... Bu gün, eyni zamanda Selçuk Bayraktarı səmimiyyətlə salamlamaq istəyirəm. Selçuk bəy nəinki "TEKNOFEST"in təşkilatçısı və təşəbbüskarıdır, Selçuk bəy və Bayraktarlar ailəsi dünyada çox məşhur bir ailədir. İkinci Qarabağ savaşında məşhur "Bayraktar" PUA-larının rolunu indi dünyada bilməyən yoxdur. Selçuk bəy dünən Şuşada idi. Əminəm, Şuşanı görərkən bir daha şahidi oldu ki, Azərbaycan və Türkiyə qarşıda duran istənilən vəzifəni icra etməyə hazırdır, buna qadirdir. Xalqlarımız öz milli qürurunu müdafiə etmək, təmin etmək üçün hər zaman hər bir addıma fədakarcasına hazırdırlar. Selçuk bəy də gənclər üçün gözəl örnəkdir, nümunədir. Əminəm ki, bizim gənclərimiz Selçuk bəy kimi olmağa çalışacaqlar".

Əziz Səncər gənclərə ağsaqqal, müəllim, dünya elminin ən ali mükafatçısı, türk, Türkiyə vətəndaşı, humanist bir şəxsiyyət olaraq müraciət etdi: "Mən xərçəng xəstəliyi ilə bağlı çalışarkən Nobel mükafatı qazanım deyə işə başlamadım. Bu xəstəliyə qarşı bir dərman tapa bilərikmi deyə fəaliyyətə başladım. Həyatda və işlərinizdə yüksəlmək və ya mükafat almaq kimi məqsədlər üçün çalışmayın. Gördüyünüz hər işdə həmişə ən yaxşı olmağa çalışın. Ən önəmlisi insanlığa və Vətəninizə töhfə verməyə çalışın. Dürüst, əxlaqlı və ədalətli olun. Əgər bu şəkildə çalışsanız, mütləq mükafatınızı alacaqsınız... Mənim üçün ən önəmli amillərdən biri türk dünyasının inkişafı və türk gənclərinin elmdə ən ön sıralarda yer almasıdır".

Selçuk Bayraktar da bu məsələyə toxunaraq dedi: "TEKNOFEST" müstəqilliyi, qardaşlığı, elmi və əxlaqı əldə rəhbər tutan bir ruhdur. Bu ruh ölkələrimizi tam müstəqil və firavan edəcək, səmalarımızı, dənizlərimizi, torpaqlarımızı qoruyub dirçəldəcək yüksək texnologiyaları bütün cəmiyyətlə birlikdə inkişaf etdirmək səfərbərliyidir. Mənə dünən ilk dəfə görməyin nəsib olduğu işğaldan azad edilmiş qədim şəhərimiz Şuşada, Cıdır düzündə, o geniş düzdə azad şəkildə gəzərkən bu ruhu daha da dərindən hiss etdim".

Festival gənclərə qayğının vacibliyini, onların təşəbbüskarlığının mükafatlandırılmasını, elmli olması şəraitinin yaradılmasının vacibliyi ismarıcını verdi. Möhtəşəm tədbir aviasiya, kosmik sənaye, rəqəmsal iqtisadiyyat kimi əhəmiyyətli sahələri cəmiyyətimizdə populyarlaşdıracaq. Bu sahələrdə sahibkarlıq fəaliyyətini təşviq edəcək. Festival çərçivəsində təşkil olunan yarışlar vasitəsilə gənc mühəndislərin bilik və bacarıqlarının üzə çıxarılması, eləcə də milli texnologiyaların geniş ictimaiyyətə təqdim olunması gənclərimizdə bu sahəyə marağı daha da artıracaq. Eyni zamanda ordu quruculuğunda yeni texnologiyalardan istifadəni genişləndirəcək.

## Yalnız irəli

"TEKNOFEST-Azərbaycan"ın siyasi əhəmiyyəti də son dərəcə böyükdür. Bu tədbir Azərbaycan-Türkiyə müttəfiqliyinin daha bir göstəricilərindən oldu. Azərbaycan Prezidenti İlham Əliyev tədbirdəki çıxışında bildirdi: "Biz ölkələrimizi müstəqillik yolu ilə irəliyə aparırıq. Mən dəfələrlə demişəm ki, Türkiyənin artan gücü bizi gücləndirir və biz bir-birimizə güc qataraq böyük dünya çapında bir güc mərkəzinə çevrildik".

"TEKNOFEST-Azərbaycan" Festivalı iki dövlətin birgə fəaliyyəti ilə regional və qlobal əhəmiyyətli tərəfdaş rolunu bir daha nümayiş etdirdi. Həmçinin yaşadığımız regionun inkişafının, insanların xoşbəxtlik və rifahının Azərbaycan və Türkiyə birliyindən, tərəfdaşlığından xeyli dərəcədə asılı olduğunu göstərdi. İki ölkənin qardaşlığının, qüdrətinin, xoş amallarının ümumilikdə region üçün yaratdığı böyük gələcəyə işıq saldı.

Bir neçə gün ərzində davam edən "TEKNOFEST-Azərbaycan" festivalında Azərbaycan və Türkiyə Prezidentlərinin məhz 28 May Müstəqillik Günündə iştirak etmələri heç də təsadüfi deyildi. 104 il əvvəl istiqlalımızın bütün dünyaya bəyan edildiyi həmin gün, əslində, Azərbaycan-Türkiyə vəhdətinin tarixi simvoludur. 1918-ci ilin 28 May günü xalqımız müsəlman Şərqinin ilk Xalq Cümhuriyyətini qurdu. Amma əfsuslar olsun ki, Xalq Cümhuriyyətinin ömrü uzun çəkmədi. Baş verən proseslərin, siyasi reallıqların təsirindən o, iki ildən sonra süqut etdi və Azərbaycan öz müstəqilliyini itirdi. Yalnız 1990-cı illərin əvvəllərində ölkəmizin dövlət müstəqilliyi bərpa edildi. Azərbaycan xalqı öz istiqlalını 30 ildir ki, qoruyur, daha da möhkəmləndirir. Hazırda dövlətimizin malik olduğu güclü iqtisadiyyat, texnologiyalara etdiyi yatırımlar da bunun təntənəsidir.

Prezident İlham Əliyev çıxışı zamanı ötən 30 il ərzində qardaş Türkiyənin daim Azərbaycanın yanında olmasını xüsusi qeyd etdi. Vurğuladı ki, 30 il ərzində biz bu qardaşlıq dəstəyini hər zaman hiss etmişik, bu gün də hiss edirik və indi Türkiyə-Azərbaycan yenə də bir yerdədir.

## Əsrlərin sınağından çıxmış birlik

Türkiyə-Azərbaycan qardaşlığı illərin, əsrlərin sınağından çıxmış münasibətdir. Bu birlik xalqlarımız üçün əsas yol istiqamətidir. Azərbaycan və Türkiyə daim bir-birinə dəstək göstərməyi özünə mənəvi borc bilir. Bu münasibətlər hər cür diplomatik əlaqələrin, siyasi maraqların fövqündədir. Müasir dünyamızda bir-birinə bu qədər doğma olan, bütün taleyüklü məsələlərdə birgə hərəkət edən, siyasətə, dövlətlərarası münasibətlərə də səmimilik gətirən iki xalq, iki dövlət təsəvvür etmək mümkün deyil. Onlar yaxşı günlərdə də, çətin günlərdə də həmişə bir-birinin yanındadır. Bu bir gerçəkdir ki, Türkiyə və Azərbaycan nə qədər bir yerdə inamla addımlasa, bölgəmizdə sülh və barış o qədər də möhkəm olacaq. Bu gerçəyi "TEKNOFEST-Azərbaycan" Festivalındakı çıxışı zamanı dövlət rəhbərimiz bir daha dilə gətirərək 44 günlük Vətən müharibəsi zamanı Türkiyənin tutduğu mövqeyi yada saldı: "Hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın müharibənin ilk saatlarında "Azərbaycan tək deyil, Türkiyə onun yanındadır" deməsi Azərbaycana daha bir güc verdi, ruh verdi, inam verdi. Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq".

Azərbaycan xalqı olaraq biz bu savaşı haqq uğrunda aparırdıq. Yurdlarımızı illərdir işğal altında saxlayan düşməni torpaqlarımızdan çıxarmaq, erməni faşizminin qarşısını almaq, onların Qarabağda, Şərqi Zəngəzurda törətdikləri vandalizm əməllərinə son qoymaq üçün bu savaşa başlamışdıq. Haqqın-ədalətin bizim tərəfimizdə olduğuna inanırdıq. Ordumuzun gücünə, Ali Baş Komandanımızın qətiyyətinə, sərkərdə qüdrətinə güvənimiz sonsuz idi. Belə bir məqamda qardaş Türkiyə hər zamankı kimi bizim üçün əlavə güc mənbəyi oldu.

## Müttəfiqlik zirvəsi

Ermənistanın havadarlarının Azərbaycanın haqq savaşını dayandırmaq üçün dünyanın müxtəlif səmtlərindən fərqli vasitələrlə, təzyiq və təhdidlərlə hərəkətə keçdikləri o tarixi günlərdə Türkiyənin bu mövqeyi bütün dünyaya verilən aydın mesaj idi. Bununla hamı bir daha gördü ki, Azərbaycan-Türkiyə birgəliyi bir tale işidir. Bu iki qardaş dövləti bir-birindən ayırmaq olmaz. Tariximizin ən önəmli anlarında bir yerdə idik və yenə də birgəyik. 2018-ci ilin 15 sentyabrında Bakının erməni işğalından azad edilməsinin 100-cü ildönümünə həsr edilmiş hərbi paradda Türkiyə və Azərbaycan əsgərləri Azadlıq meydanına çiyin-çiyinə çıxmışdılar. Bu möhtəşəm tarixin təkrarı isə 2020-ci ilin 10 dekabrında təşkil edilmiş Zəfər paradında bir daha yaşandı. Zəfər paradı Azərbaycan-Türkiyə birliyinin daha bir təntənəsi oldu. Eyni zamanda göstərdi ki, bu iki dövlət bundan sonra da daim bir yerdə olacaq, ölkələrimizin gücü, qüdrəti daha da yüksələcək.

Azərbaycan və Türkiyə prezidentləri 2021-ci ilin 15 iyununda - Azərbaycanın Milli Qurtuluşu Günü tarixi Şuşa Bəyannaməsinə imza atmaqla bu birgəlik salnaməsində daha bir möhtəşəm səhifə açdılar. Cənubi Qafqaz regionunda sabitlik və inkişaf amallarını bir daha nümayiş etdirdilər. Maraqlı tərəflər qarşısında böyük qətiyyət sərgilədilər. Bəyannamənin məhz Şuşada imzalanması ilə Azərbaycan Vətən müharibəsindəki tarixi qələbəsini bir daha təsdiqlədi, revanşistlərə və ölkəmizin ərazi bütövlüyünə qarşı təhdid mövqeyində olan hər kəsə mesaj verildi ki, belə bir çirkin niyyətə düşsələr, hansı güclə üz-üzə qalacaqlarını müəyyənləşdirsinlər.

Şuşa Bəyannaməsi ilə Türkiyə və Azərbaycan rəsmən müttəfiqlik zirvəsinə ucaldı. Bu müttəfiqliyi hər yerdə - siyasətdə, iqtisadi əlaqələrdə, enerji, nəqliyyat layihələrinin həyata keçirilməsində də, mədəniyyətdə, təhsildə, ordu quruculuğu istiqamətində də görmək mümkündür.

Prezident İlham Əliyev bəyan etdi ki, bundan sonra da Türkiyə və Azərbaycan yüksələn xətlə ancaq irəliyə gedəcək. Yeni qlobal reallıqlarda Azərbaycan və Türkiyə beynəlxalq güc mərkəzləridir. Dost, qardaş ölkənin artan nüfuzu Azərbaycanı daha da möhkəmləndirir və hər iki dövlət bir-birinə arxa-dayaq olaraq dünya miqyasında təsirli güc mərkəzi rolunu oynayır.

Azərbaycan Prezidenti çıxışı zamanı dövlət siyasətinin mütləq prioritetlərini də diqqətə çatdırdı. Xalqımızın milli maraqlarının müdafiə olunmasının, ölkəmizin müstəqil siyasət aparmasının vacibliyini vurğuladı. Dövlət müstəqilliyi xalqların istiqlal mübarizəsinin, əsrlər boyu formalaşdırdığı mənəvi potensialın, maarifçilik ənənələrinin, milli-mənəvi dəyərlərə bağlılığın, eyni zamanda milli vəhdətinin bariz təcəssümüdür.

Cənab Rəcəb Tayyib Ərdoğan da dövlətlərarası münasibətlərdən bəhs edərkən birlik və bərabərliklə bağlı fikirlərini açıq şəkildə səsləndirdi: "Qərbdən Şərqə qədər harada bir qardaşımız varsa, ora bizim evimiz, yurdumuz, könül coğrafiyamızın ayrılmaz bir parçasıdır. Türkiyə və Azərbaycan olaraq bu anlayışla əlaqələrimizi, şükür olsun, əvvəlcə strateji tərəfdaşlıq, keçən il də Şuşa Bəyannaməsi ilə strateji müttəfiqlik səviyyəsinə çatdırdıq. Enerjidən mədəniyyətə, müdafiədən ticari, iqtisadi və bəşəri münasibətlərə qədər uzanan geniş bir sahədə güclü əməkdaşlıqlar qurduq. ...İkitərəfli əlaqələrimizi təkcə bölgəyə deyil, bütün dünyaya nümunə ola biləcək bir səviyyəyə çatdırdıq".

Daha sonra onu da xüsusi vurğuladı ki, parlamentlərimizdə təsdiqlədiyimiz Şuşa Bəyannaməsində qeyd etdiyimiz kimi, müdafiə sənayesi sahəsində fəaliyyətdə, o cümlədən kosmik tədqiqatlarda da Azərbaycanla birlikdə olacağıq.

## Kədərimiz də, sevincimiz də birdir

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın çıxışı maraqlı məqamlarla zəngin idi. Qardaş ölkənin dövlət başçısı bu il Türkiyə-Azərbaycan diplomatik əlaqələrinin 30 illik yubiley ili olması faktına diqqət yönəltdi və Türkiyənin Azərbaycana dəstəyinin tarixindən danışdı. Vurğuladı ki, 1915-ci ildə Çanaqqalada, 1918-ci ildə Gəncədə, Bakıda və Azərbaycanın digər bölgələrində ürəklərimiz və biləklərimiz ortaq mübarizəmizdə yenidən bərabər olmuşdur. Bu iki xalqın, dövlətin kədəri də, sevinci də birdir, Azərbaycan və Türkiyə arasındakı qardaşlıq münasibətləri sözdə deyil, əməldədir.

Türkiyə Prezidenti bəyan etdi ki, Azərbaycan və Türkiyə birliyi təzyiqlə, təhdidlə qorxudulanlardan olmayıb və əsla olmayacaq: "Bizim heç kimin torpağında, ərazi bütövlüyündə gözümüz olmadığı kimi, xəbis niyyətlilərə verəcək bir qarış torpağımız da olmayacaqdır. İşğala və haqsızlığa qarşı hər şəraitdə doğru olanı söyləməkdən, haqlı mübarizəmizi müdafiə etməkdən geri durmadıq və durmayacağıq". Bu, iki ölkənin sarsılmaz birliyinin yaratdığı gücün əminliyidir.

## Qəhrəmanlıq dastanı

Bu gün Azərbaycan və Türkiyə insanları tarixi, mədəniyyəti və mədəni dəyərləri ilə seçilən böyük bir millətin övladları olduqlarını, harada zülm, haqsızlıq, ədalətsizlik varsa, səsini ucaldan, bütün gücü ilə mübarizəyə qalxan ürəkli bir millətin nümayəndələri kimi qətiyyətlərini, iradələrini hər zaman nümayiş etdirirlər. Bu məqam cənab Rəcəb Tayyib Ərdoğanın çıxışında da özünə yer aldı. Qardaş ölkənin rəhbəri Qarabağ Zəfərinin millətimizin qəhrəmanlıq dastanlarının ən son örnəyi olduğunu vurğuladı: "Azərbaycan Silahlı Qüvvələrinin igid mənsubları Qarabağda tarixdə bənzərinə az rast gəlinən böyük bir Zəfərə imza atmışlar. Bu məqam çox həssasdır, 44 günlük Vətən müharibəsi ağıl, texnologiya və cəsarət bir araya gəldikdə nələrin edilə biləcəyini bütün dünyaya göstərmişdir".

## Bölgədə yeni səhifə

Vətən müharibəsi günlərində olduğu kimi, sülh dönəmində də Türkiyə Azərbaycanın yanındadır. Regionda yeni tarixi reallığı bu iki ölkə birgə yaradır. Sülh və dayanıqlı sabitliyin təmin olunmasına Türkiyə də fəal şəkildə dəstək verir. Cənab Rəcəb Tayyib Ərdoğan bu dəstəyin davam etdiriləcəyini bildirdi: "Bölgədə yeni bir səhifə açmağın vaxtı çatıb. Hədəfimiz dayanıqlı sülhün təmin olunması, etimadın və mehriban qonşuluq əlaqələrinin qurulması, inkişafın sürətlənməsi ilə bölgədə sabitliyin möhkəmləndirilməsidir". Təbii ki, bu, əməkdaşlığımıza yeni bir nəfəs qatacaq. İki ölkə arasında qarşılıqlı etimadın möhkəmləndirilməsi, dünyada sülhün bərqərar edilməsi, xarici siyasət məsələlərinə ortaq yanaşmanın təşviqi, beynəlxalq terrorizm, separatçılıq, ekstremizm və transmilli cinayətkarlığa qarşı mübarizənin əlaqələndirilməsi, ortaq maraq kəsb edən bütün sahələrdə regional və ikitərəfli əməkdaşlığın gücləndirilməsi əsas məqsədlərdir. Ticarət əlaqələri və investisiya üçün əlverişli şəraitin yaradılması, hərtərəfli və balanslaşdırılmış iqtisadi yüksəlişə, sosial və mədəni inkişafa səy göstərilməsi, elm, texnologiyalar, təhsil və mədəniyyət sahəsində qarşılıqlı əlaqələrin genişləndirilməsi, kütləvi informasiya vasitələri arasında əlaqələrin, eləcə də daha geniş miqyasda informasiya mübadiləsinin təşviq edilməsi, hüquqi məlumatların mübadiləsinin, bu sahədə əməkdaşlığın genişləndirilməsi də strateji məsələlərə daxildir.

Göründüyü kimi, iki qardaş dövlətin birliyi kiminsə marağına toxunan, hansısa ölkələrin imkanlarını məhdudlaşdıran, yaxud milli zəmində ayrı-seçkiliyə yol açan təşəbbüs deyil. Əksinə, burada əsas niyyət bəşəriyyətə xidmətdir. Sülhə, davamlı inkişafa töhfə verməkdir. Hər kəs üçün daha gözəl bir dünyanın qurulmasına çalışmaqdır.

Bu, bəşəriyyətə xoşbəxtlik, rifah, daha gözəl bir dünya arzulayan liderlərin baxışıdır, verdiyi istiqamətdir, yaratdığı reallıqdır. Bu reallığın müəllifləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğandır. Azərbaycan və Türkiyə münasibətlərinin indiki səviyyəyə yüksəlməsində zəmanəmizin bu iki parlaq liderinin misilsiz xidmətləri var. Ölkələrimiz, cəmiyyətlərimiz arasındakı ortaq keçmişə, tarixi köklərə, gen yaddaşına, mədəniyyət, dil, din birliyinə əsaslanan bu münasibətləri Azərbaycan və Türkiyə Prezidentlərinin bir-birinə olan sonsuz rəğbəti, qarşılıqlı inam və güvəni, işıqlı amalları, yürütdükləri müstəqil siyasət regionun və dünyanın gələcəyinə eyni baxışları daha da möhkəmləndirir, sarsılmaz edir. Bu doğmalıq, bu birgəlik bütün dünyaya bir örnəkdir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Cənubi Qafqazın lider dövlətinin nüfuzu artır

Bu gün ölkəmiz öz iqtisadi gücü, artan hərbi qüdrəti ilə Cənubi Qafqazın lider dövləti olmaqla yanaşı, həm də sülhün, təhlükəsizliyin qarantı rolunda çıxış edir. Bu heç də asan başa gələn məsələ deyil.

Əldə olan uğurlarımıza, respublikamızın artan gücünə, xalqımızın hər gün yaxşılaşan xoş güzəranına görə ilk növbədə Prezident İlham Əliyevə minnətdar olmalıyıq. Ölkəmizin adının dünyada söz sahibi olan böyük dövlətlərlə bir arada çəkilməsi olduqca qürurvericidir.

Heç kimə sirr deyil ki, dövlətlərarası münasibətlərdə liderin şəxsi nüfuzu inkarolunmaz rola malikdir. Bunu zaman -zaman gözlərimizlə görüb, həyatımızda da yaşamışıq. Yaxın keçmişimizi yada salaq. Ötən əsrin 90-cı illərində ölkəyə rəhbərlik edənlər qonşu dövlətlərdən ölüm təhlükəsi ilə baş-başa qalmış əhalinin təxliyyəsi üçün bir helikopter belə ala bilmədilər. Respublikanın iqtisadiyyatı nəinki çökmüşdü, insanlar çörəklə imtahana çəkilmək təhlükəsi ilə üzləşmişdi. Haqsız cəlb olunduğumuz müharibə nəticəsində hər gün ərazilərimizin bir hissəsini itirməyə "vərdiş" etmişdik. Düşdüyü ağır durumdan çıxmağın yollarını tapmaq, indiki günümüzü xəyal etmək belə mümkün deyildi. İndi isə sanki hər şey möcüzə kimi görünür, xəyallarımız gerçəkləşib, yuxumuz çin çıxıb.

Ölkəmizin iqtisadi və hərbi qüdrəti elə bir səviyyəyə yüksəlib ki, bir zamanlar hansısa bir texnikaya möhtac qalmış Azərbaycan hazırda güclü orduya sahibdir. Dünyanın bir sıra olkələrində sülhyaratma missiyasının həyata keçirilməsində iştirak edir. Ölkəmizin sülhün, sabitliyin qorunub saxlanılması istiqamətində gördüyü iş, verdiyi töhfə o qədər böyükdür ki, bu, hətta nüfuzlu dövlətlərin diqqətindən kənarda qalmır.

Hər gün dünya arenasında siyasi çəkisi, iqtisadi gücü daha da artan, sözünün sanbalı və nüfuzu ilə seçilən respublikamız ən mühüm beynəlxalq tədbirlərə evsahibliyi edir, qlobal problemlərin həllində, ikitərəfli, üçtərəfli danışıqlar prosesində vasitəçilik missiyasını yerinə yetirir.

Rusiya Prezideni Vladimir Putin 28 May Müstəqillik Günü münasibətilə dövətimizin başçısına göndərdiyi təbrik məktubunda respublikamızın dünyada yerini və rolunu belə ifadə edib: "Azərbaycan dünya arenasında haqlı nüfuz qazanıb, beynəlxalq gündəliyin bir çox aktual məsələlərinin həllində mühüm rol oynayır".

Dünyanı sosial, iqtisadi böhranın bürüdüyü, siyasi kataklizmlərin baş verdiyi bir zamanda həm ölkənin təhlükəsizliyini qoruya bilmək, həm də beynəlxalq aləmdə baş verən hadisələrdə söz sahibi kimi proseslərə təsir göstərib xalqının və dövlətinin maraqlarını müdafiə etmək yalnız böyük siyasi xadimlərə xas olan xüsusiyyətdir. Bunun üçün böyük siyasətin incəliklərini bilməklə yanaşı, qətiyyət, cəsarət, vaxtında və düzgün qərarvermə qabiliyyəti, uzaqgörənlik və möhkəm iradə lazımdır. Bunu hadisələrin axınına qoşulub gedənlər yox, zamanı öz arxasınca apara bilən, hadisələrin istiqamətini ölkəsinin, dövlətinin, xalqının xeyrinə dəyişməyi bacaran böyük siyasətçilər, əsl dövlət xadimləri edə bilirlər. Biz bu uzaqgörənliyin ən parlaq nümunəsini dövlət başçısı İlham Əliyevin timsalında müşahidə etdik.

Prezident İlham Əliyev dünya çapında öz dəst-xəti ilə seçilən, sözünün sanbalı və şəxsi nüfuzu ilə fərqlənən, imzası qədər sözünə dəyər verən çox nadir siyasətçilərdəndir. Onun siyasi fəaliyyəti və gördüyü işin nəticəsi göz qabağındadır. Biz bu uğurlu siyasəti xalqımızın apardığı 44 günlük Vətən müharibəsi zamanı da gördük, ondan sonrakı quruculuq proseslərində də şahid olduq. Hərbi qələbəni siyasi müstəvidə də qəbul etdirmək nadir hallarda mümkün olan hadisədir. Artıq biz bu gerçəkliyi də yaşamaqdayıq. Dünyanın super gücləri 44 günlük müharibə zamanı əldə olunmuş qələbənin nəticələrini tanımaqdadırlar. Aparılan balanslaşdırılmış siyasət, səbir, uzaqgörənlik və ən başlıcası müharibə qanunlarına riayət etmək, siyasətində saflıq, aydınlıq ölkəmizin dünyaya ən gözəl və dürüst təqdimatıdır.

Bu gün Azərbaycanın iqtisadi-siyasi uğuru birmənalı olaraq dünyanın diqqət mərkəzindədir və qazanılan nəticələr tərəfdaş, dost dovlətlər tərəfindən məmnunluqla ifadə edilir. Fikirlərimizin təsdiqini 28 May Müstəqillik Günü münasibətilə dünyanın liderlərinin dövlətimizin başçısına göndərdikləri təbrik məktublarında da görürük. ABŞ Prezidenti Cozef Baydenin Prezident İlham Əliyevə göndərdiyi məktubda respublikamızın regionda və dünyadakı rolundan bəhs edilir və xüsusi vurğulanır: "Azərbaycan Avropa və dünya bazarlarının təhlükəsizliyinin təmin olunması və sabitləşdirilməsində önəmli rol oynayır".

Eyni zamanda Amerika rəhbəri öz məktubunda ölkəmizlə əməkdaşlığı daha da genişləndirmək niyyətini açıq şəkildə bəyan edir: "Amerika Birləşmiş Ştatları bütün Qafqaz və Trans-Xəzər regionunun çiçəklənməsinə imkan verəcək Azərbaycan ilə Ermənistan arasında diplomatik təmasların intensivləşdirilməsinə və Azərbaycanın iqtisadi, nəqliyyat və insanlararası əlaqələrinin qurulmasına kömək etməyə hazırdır".

Göründüyü kimi, Amerika-Azərbaycan münasibətləri yeni, daha uğurlu mərhələyə qədəm qoyur. ABŞ Prezidenti respublikamızın apardığ siyasəti tam dəstəkləməklə Azərbaycanın etibarlı tərəfdaş olduğunu ifadə edir.

Məktubda diqqətçəkən əsas məqamlardan biri də ABŞ Prezidentinin "Sizin terrorizmə qarşı qlobal mübarizəyə verdiyiniz əhəmiyyətli töhfələrinizi təqdir edirik. İndi Cənubi Qafqazda davamlı sülhə nail olmaq üçün mühüm imkana bəslənən ümid zamanıdır", - deməsidir.

Həqiqət günəş kimidir. Qarşısını tutmaq mümkün deyil. Gec-i, tezi parlayacaqdır. Qərəzli, ermənipərəst mövqeyi ilə seçilən Fransa Prezidenti Emmanuel Makronun Prezident İlham Əliyevə ünvanladığı məktubda ölkələrarası münasibətlərin daha da genişləndirilməsi arzu olunmaqla, sülh naminə Azərbaycanla Ermənistan arasında gedən danışıqlar prosesini dəstəklədiyini vurğulayır.

İran Prezidenti Seyid İbrahim Rəisinin məktubunda isə Azərbaycanın ərazi bütövlüyünün bərpasına olan münasibət diqqət çəkir: "Sevindirici haldır ki, Azərbaycan Respublikasının ərazilərinin işğalına son qoyulduqdan sonra iki ölkənin əməkdaşlıq imkanları və sahələri daha da genişlənmişdir. Ümidvaram ki, iki ölkə xalqlarının qarşılıqlı mənafeyinə və istəyinə uyğun olaraq, hər iki tərəfin səyləri nəticəsində həmin imkanlardan istifadə ediləcəkdir".

Digər dövlət və hökumət başçılarının da təbrik məktublarında dövlətimiz və onun rəhbəri barəsində qürurverici ifadələr yer almışdır. Siyasətçinin ən mühüm keyfiyyəti gələcək hadisələri düzgün qiymətləndirib vaxtında tədbir görməsidir. Uğurlarımızın başlıca səbəbi də elə bundadır: tədbirlilik, uzaqgörənlik, müdrüklik...

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# REGİONLAR





# 38 rayonda arpa biçininə start verilib

## Bu il ölkə üzrə 413,6 min hektarda arpa əkilib

**Bu il ölkədə 1019934 hektar sahədə payızlıq taxıl əkini aparılıb. Əkin sahələrinin 606338 hektarı buğda, 413596 hektarı isə arpa sahələridir.**

Hazırda Azərbaycanın 38 rayonunda arpa biçini aparılır. Aran rayonlarında arpa biçininin optimal müddətdə başa çatacağı gözlənilir. İyunun ikinci ongünlüyündə isə bu bölgələrdə buğda biçininə start veriləcək.

İyunun 9-na olan operativ məlumata görə, biçin prosesinə 986 taxılbiçən kombayn cəlb olunub. Aktiv biçin prosesində "Aqroservis" ASC-nin yerli bölmələrinin 417, fiziki və hüquqi şəxslərin isə 569 kombaynı iştirak edir. "Aqroservis" ASC tərəfindən biçin gedən rayonlara hazırda biçin aparılmayan dağətəyi və dağlıq ərazilərdə yerləşən bölmələrdən əlavə kombaynlar dislokasiya olunub.

Qeyd edək ki, "Aqroservis" ASC-nin kombaynları ilkin mərhələdə sahəsi 50 hektaradək olan kiçik və orta təsərrüfatlarda biçin aparır. Biçin prosesi növbəlilik prinsipi əsasında həyata keçirilir. Növbəlilik sistemi biçinə hazırlıq dövründə yerlərdə icra nümayəndələri və bələdiyyələr tərəfindən müəyyənləşdirilib, sistemə nəzarət isə Dövlət Aqrar İnkişaf Mərkəzləri tərəfindən həyata keçirilir.

Rayonların kombaynlara olan tələbatının əvvəldən müəyyən edilməsi, texnikaların biçindən əvvəl tələbata uyğun olaraq rayonlarda dislokasiya olunması, "Aqroservis" ASC tərəfindən sosial biçin siyasətinin həyata keçirilməsi (ilk növbədə 50 hektaradək sahələrdə biçin aparılacaq) ötən illərdə olduğu kimi, bu il də biçin prosesində texnika ilə təminatda problem olmayacağını söyləməyə əsas verir.

# Tərtərdə barama tədarükünə başlanıb

Ölkəmizdə ənənəvi və ixracyönümlü təsərrüfat sahəsi olan baramaçılığın inkişafı ilə bağlı həyata keçirilən tədbirlər faydasız qalmır. Bu baxımdan Tərtər rayonu da fərqlənir.



İpəkqurdunun yem bazasının bərpası məqsədilə rayon üzrə 2016-2021-ci illərdə 304,8 min çəkil tingi əkilmişdir ki, onun da 133 mini Çin Xalq Respublikasından gətirilmişdir. Mövcud və yeni əkilən tut ağacları, əhalinin baramaçılıq sahəsindəki təcrübəsi, həmçinin bu sahənin gəlirli olması baramaçılığın inkişafına marağı artırıb. Bunu rəqəmlər də sübut edir: Tərtərdə 2016-cı ildə 1 ton, 2017-ci ildə 4,6 ton, 2018-ci ildə 10,2 ton, 2019-cu ildə 18.3 ton, 2020-ci ildə 12.1 ton, 2021-ci ildə 13.6 ton barama istehsal olunmuşdur. Bu il isə kümçülərə 330 qutu ipəkqurdu verilmiş, 13,2 ton barama istehsalı nəzərdə tutulmuşdur.

Artıq rayonda yaş barama tədarükünə başlanıb. Qəbul məntəqəsində baramanın qəbulu üçün lazımi şərait yaradılıb. Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov tədarükün ilk günü barama qəbulu məntəqəsində olub, kümçülərlə görüşüb, müvafiq tövsiyələrini verib, onlara məhsul yığımında uğurlar arzulayıb.

Mövsümün ilk günündə kümçülərin yetişdirdikləri 950 kiloqram məhsul "Azəripək" MMC nümayəndələri tərəfindən qəbul edilib.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

***Redaksiyadan:***

Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə, iyunun 10-dək kümçülər tərəfindən tədarük məntəqələrinə 157 ton yaş barama təhvil verilib.

Ən çox barama tədarükü Zərdab rayonunda aparılıb. Zərdab kümçüləri tədarük məntəqələrinə 48 ton 380 kiloqram yaş barama təhvil veriblər. Məhsul tədarükünə görə, Ağcabədi (16 ton 963 kq), Balakən (14 ton 496 kq), Bərdə (9 ton 743 kq), Füzuli (9 ton 205 kq), Kürdəmir (6 ton 952 kq) rayonları öndə gedir.

Yaş barama istehsalı dövlət tərəfindən subsidiyalaşdırılır. Bu ildən yaş barama tədarükünə görə dövlət tərəfindən verilən subsidiyanın məbləği və məhsulun alış qiyməti artırılıb. Kümçülər yaş baramanı kiloqramı 5 manatdan "AzərİpƏk" MMC-yə təhvil verirlər. Dövlət əlavə olaraq hər kiloqram yaş barama istehsalına görə fermerlərə 6 manat subsidiya ödəyir. Ümumilikdə fermer təhvil verdiyi hər kiloqram yaş baramanın əvəzində 11 manat alır.

Bu il dövlət tərəfindən kümçülərə əvəzsiz olaraq 11130 qutu ipəkqurdu toxumu paylanıb. Cari ildə Azərbaycanın 40 rayonunda yaş barama tədarükü aparılır.

# Həkəri çayına qızılxallı forel körpələri buraxılıb

Qarabağ və Şərqi Zəngəzur ərazisində biomüxtəlifliyin qorunmasına və su hövzələrində bioresursların bərpasına töhfə vermək məqsədilə Zəngilan rayonunun Ağalı kəndinin yaxınlığından keçən Həkəri çayına balıq körpələrinin buraxılışı həyata keçirilib.

Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəsmisi Arzu Babayeva bildirib ki, Zəngilan rayonunda Prezidentin xüsusi nümayəndəsi Vahid Hacıyevin və ETSN rəsmilərinin iştirakı ilə çaya balıqartırma zavodlarında yetişdirilən 2000 qızılxallı forel körpəsi buraxılıb.

Xidmət rəsmisi balıqların kürütökmə dövrü ilə əlaqədar hər il ölkədə mayın 1-dən etibarən balıq ovuna 4 aylıq moratorium tətbiq edildiyini diqqətə çatdırıb və balıq ehtiyatlarının artırılması üçün bütün qayda və tələblərə riayət olunmasını tövsiyə edib: "Gəlin balıq ehtiyatlarının qorunmasına, məsuliyyətli balıq ovlanmasının təşviqinə dəstək olaq, balıq ehtiyatlarının artımının qarşısını alan bütün hərəkətlərdən imtina edək".

# "ECOserve" proqramı çərçivəsində əməkdaşlığın genişləndirilməsi nəzərdə tutulur

*Kənd Təsərrüfatı Nazirliyinin Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) ilə partnyorluq çərçivəsində həyata keçirdiyi Cənubi Qafqazda kəndlərin davamlı inkişafı üçün təbii sərvətlərin idarə edilməsi və ekosistem xidmətlərinin qorunması (ECOserve) proqramı üzrə görülmüş işlərin hesabat iclası keçirilib.*

ECOserve

Tədbirdə Azərbaycan Respublikasının kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova, Kənd Təsərrüfatı Nazirliyinin Torpaqdan istifadəyə nəzarət şöbəsinin müdiri və işçi qrupun rəhbəri Firidun Tağıyev, Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ GMBH) Azərbaycan üzrə ölkə direktoru Karin Hörhan, Almaniya Federativ Respublikasının Bakıdakı səfirliyinin İqtisadiyyat, mədəniyyət və mətbuat işləri üzrə nümayəndəsi Zübeyde Oyan, “ECOserve” proqramının Azərbaycan üzrə heyət rəhbəri Stephan Kroel, Kənd Təsərrüfatı Nazirliyinin müvafiq struktur bölmə rəhbərləri və aparıcı mütəxəssisləri iştirak ediblər.

Tədbirin açılış mərasimində çıxış edən kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova hazırda respublikada aqrar sektorda aparılan yeniliklər haqqında geniş məlumat verib. Nazir müavini GİZ təşkilatının "ECOserve" proqramı tərəfindən icra olunan işləri təqdirəlayiq qiymətləndirib və bu sahədə Kənd Təsərrüfatı Nazirliyinə göstərilən dəstəyə görə təşəkkür edib. Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin Azərbaycan üzrə ölkə direktoru Karin Hörhan öz növbəsində Kənd Təsərrüfatı Nazirliyi ilə birgə "ECOserve" proqramı çərçivəsində sıx əməkdaşlıqdan məmnun olduğunu bildirib və gələcəkdə bu əməkdaşlığın daha da genişləndiriləcəyini vurğulayıb.

Daha sonra iclas iştirakçıları "ECOserve" proqramının Azərbaycanda həyata keçirdiyi layihələrlə bağlı təqdimatlarla tanış olublar. Qeyd olunub ki, "ECOserve" proqramı çərçivəsində icra olunan fəaliyyətlər qərar qəbuledicilər üçün məlumatların toplanması və təhlilinin təkmilləşdirilməsi, dayanıqlılığın təmin edilməsi üçün hüquqi bazanın gücləndirilməsi, Qabaqcıl Aqrar Praktikaların (QAP) pilot sahələrdə tətbiqi, ətraf mühit üzrə təlim və maarifləndirmə işlərinin aparılması və innovasiya müsabiqələrinin təşkilindən ibarət olub.

Tədbirin sonunda “ECOserve” proqramı çərçivəsində görülən işlərin uğurlu olduğu vurğulanıb və gələcəkdə bu istiqamətdə əməkdaşlığın genişləndirilməsi təklif olunub.

*Kənd qayğıları*



# Sədanın sədası çoxdan Siyəzənin sərhədini aşıb

**Kəndin qaynar dövrü davam edir. Bir tərəfdə arpa biçini, bir tərəfdə də meyvə yığımı yaman qarışdırıb kəndlinin başını. Amma işlər bunlarla qurtarmır. Mal-qaranın qış hazırlığı da görülməlidir, baxmayaraq ki, heç əməlli-başlı yay da girməyib.**

Dağ kəndlərində qışa hazırlıq məhz bu vaxt başlayır. Siyəzən rayonunun Sədan kəndində olduğu kimi. Sədanlılar hazırda mal-qaranın ot ehtiyatı ilə məşğuldurlar. Hər səhər onlar dəstə-dəstə ot biçininə yollanırlar. Əsasən, dağlarla əhatələnmiş Sədanda bu aylar ot bol olur.

- Bu il yaz gələndən havalar əvvəl isti keçsə də, sonralar yağıntı düşdü, - deyə kənd sakini İsmayıl Muradzadə bildirdi. - Mayın əvvəlindən başlayan yağışlar ətrafı yamyaşıl etdi. Kəndimiz böyükdür, hamının da heyvanı var. İndi kənd işlərində bir az sakitlik yaranıb. Ona görə də daha çox ot biçini ilə məşğuluq.

Ot biçinində hər evdən bir nəfər iştirak edir. Hamı səhər kənd kitabxanasının qarşısına yığışır. Oradan da biçinə yollanırlar. İti dəryazlar yaşıl ot zəmilərini zərgər dəqiqliyi ilə elə biçir ki, insan kənardan baxıb heyran qalır.

- Biz dədə-babadan mal-qaranın otunu buralardan biçirik, - həmsöhbətim İsmayıl əlavə edir. - Dağlarda ot bol olanda hamı sevinir. Çünki qışın tədarükünü görmək lazımdı. Yayda - taxıldan sonra da ot göyərir. Amma onu biçib saxlamaq mümkün deyil, tez xarab olur. İndiki isə marta qədər qurudulmuş halda qalır.

Kənd camaatı ot biçinində bir-birinə yardım edir. Evdə başıpapaqlısı olmayan ailələrə yığılan otdan hərə pay göndərir. Kənddə iki traktor var. Ot evlərə onlarla daşınır. Traktor həmin evlərin yanından keçəndə bir topa (sədanlılar ona şələ deyir) onların qapısından içəri atılır.

Araz Bağırov rayon mərkəzində işləyir. Birinci Qarabağ müharibəsinin iştirakçısıdır. Bu günlər səhər və axşam saatlarında, özünün dediyi kimi, biçin növbəsi başlayır:

- Həyətdəki heyvanlar indi hər gün otlaqlara buraxılır. Qışda isə onlar tövlədə saxlanılır. Bizdə qış soyuq keçir. Ona görə də səhər beşdə durub dəryaza güc verirəm. Bir də axşam saatlarında oğlum mən gələnəcən sahənin kənarında gözləyir. Nə qədər rayonda işləsək də, kəndlinin ruzisi torpaqdan çıxır.

Onu da bildirək ki, digər kəndlərdə torpaq sahələrinin çoxu kənar adamlar tərəfindən tutulub. Sədanda isə otlaq sahələri hamının ümumi mülkiyyətidir. Hələlik dağların sahibi yerli camaatdır.

- Gün ərzində buradan kəndə 10 dəfə ot daşıyıram, - deyə traktorçu Güləli Salahov bildirir. - Yanacağı özümüz yığışıb alırıq. Kənddə hamının ot yığımına marağı var. Çünki hər qapıda yoxsa 5-10 inəyi, qoyunu, keçisi var. Soyuqlar düşəndə başqa yerlərdən gəlib bizdən süd, qatıq, qaymaq alırlar. Çox vaxt Taleh Mirzəyevlə birlikdə özümüz evlərdən yığdığımız məhsulları rayon mərkəzindəki marketlərə aparırıq. Geri qayıdanda hamıdan nə götürmüşüksə, pulunu ödəyirik.

Kəndin şəhidi var. Əlirza Səfərov Birinci Qarabağ savaşında qəhrəmancasına döyüşərək şəhid olub. Sədanlılar həmin ailəyə bu gün də yardım edirlər. 44 günlük Vətən müharibəsinin iştirakçıları olan qazilərə də camaat diqqət və qayğıkeşliklə yanaşır. 3 qazinin toyunu sədanlılar edib. Onu da bildirək ki, hamının bir-birinə qohum olduğu bu kənddə boşanma halı yoxdur.

Məmmədbağır Bağırov, Taleh Mirzəyev, Elton Ağayev, Nazim Muradov bildirdilər ki, zəhmət olan yerdə bərəkət olar: "Bu gün hətta ətraf rayonlarda, paytaxtda Sədan qaymağı, qatığı, əti, yumurtası adla deyilir. Bunun kökündə isə çəkilən zəhmət dayanır".

- Aran yerlərinə nisbətən bizdə taxıl yığımı bir qədər gec başlayır, - deyə İsmayıl Muradzadə bildirdi. - Çalışırıq ki, ona qədər ot yığımını yekunlaşdıraq. Çünki strateji məhsul olan taxıl kəndlinin çörəyidir.

Bəli, torpağın gücü həm də onu əkib-becərən insanlardadır. Bu cür insanların əməyi ilə quru yer cənnətə çevrilir. Əmin olmaq istəyən Sədana gəlsin.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Əhmədbəyli-Füzuli-Şuşa, Füzuli-Ağdam və digər layihələrə Mobil Müşahidə Sistemləri quraşdırılıb

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyində (AAYDA) yeni çağırışlara uyğun hazırlanmış konsepsiya əsasında idarəetmənin təkmilləşdirilməsi istiqamətində işlər aparılır.

Rəqəmsal idarəçiliyin inkişafı, daxili idarəetmə proseslərinin optimallaşdırılması və elektronlaşdırılması, bu sahədə çevik və effektiv idarəetmənin təmin edilməsi məqsədilə AAYDA-da Avtomobil Yolları İnformasiya Sistemi (AYİS) yaradılmışdır.

Bu işlərin davamı olaraq bir müddətdir ki, agentlik tərəfindən müasir idarətmə və nəzarət mexanizmlərinin tətbiqinə başlanılıb. Belə ki, yol infrastrukturu layihələrinin icra olunduğu ərazilərə Mobil Müşahidə Sistemləri - servisi (MMS-S) müəssisəsi tərəfindən hazırlanan Mobil Müşahidə Sistemləri quraşdırılır. Mobil qoşqu üzərində yığılan bu qurğuda hər şey yüksək dəqiqliklə hesablanıb, başqa sözlə desək, sistem mobil qoşquya yığıldığı üçün hər hansı bir avtomobilə qoşularaq istənilən yerə daşınması mümkündür.

Yol layihələrinin icrasına nəzarət onlayn şəkildə monitorla və ya mobil telefonla xüsusi proqram vasitəsilə təmin olunur. Günəş panellərinin istehsal etdiyi enerji ilə 24 saat kəsintisiz, 500 metr ərazini əhatə edən videogörüntünü izləmək mümkündür. Bundan başqa, iki sabit və bir hərəkətli kameralar vasitəsilə müxtəlif bucaqlardan və məsafədən uzun müddət qurğunun yaddaşında saxlamaqla canlı, həmçinin istənilən hava şəraitində müşahidə aparmaq olur.

Hazırda bu cür Mobil Müşahidə Sistemləri Əhmədbəyli-Füzuli-Şuşa, Füzuli-Ağdam, Muğanlı-İsmayıllı-Qəbələ və Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yollarında quraşdırılaraq tikinti prosesi tam nəzarət altında saxlanılır.

Yaxın müddət ərzində bu cür sistemin Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yoluna, həmçinin digər böyük yol layihələrinin icrası həyata keçirilən ərazilərdə quraşdırılması nəzərdə tutulur.



# Bu gün və sabah "Kənddən şəhərə" həftəsonu yarmarkaları fəaliyyət göstərəcək

**Kənd Təsərrüfatı Nazirliyi tərəfindən bu gün və sabah Bakı və Abşeron ərazisində "Kənddən şəhərə" həftəsonu yarmarkaları keçiriləcək.**

Ümumilikdə 3 ünvanda baş tutacaq həftəsonu yarmarkalarının təşkilində əsas məqsəd yerli fermer təsərrüfatları üçün alternativ satış kanalı yaratmaq, eyni zamanda şəhər sakinlərini təbii, mövsümi və sağlam kənd məhsulları ilə dolğun şəkildə təmin etməkdir.

"Kənddən şəhərə" həftəsonu yarmarkalarında ümumilikdə 100-ə yaxın fermer 45 regionu təmsil edəcək. Fermerlər 90-a yaxın çeşiddə kənd təsərrüfatı və qida məhsullarını satışa çıxaracaqlar.

Yarmarkalarda satışa çıxarılan məhsulların keyfiyyətinə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi tərəfindən nəzarət olunacaq. Belə ki, yarmarkada Səyyar Qida Laboratoriyası fəaliyyət göstərəcək. Vətəndaşlar satışa çıxarılan hər hansı bir məhsulun keyfiyyət göstəricilərini öyrənmək üçün laboratoriyanın xidmətlərindən faydalana bilərlər.

Xatırladaq ki, "Kənddən şəhərə" həftəsonu yarmarkalarında fermerlər tamamilə ödənişsiz şəkildə iştirak edirlər. Onlar piştaxta, tərəzi, soyuducu və digər lazımi ləvazimat və avadanlıqlarla təmin olunurlar. Həmçinin məhsullarının daşınmasında çətinlik çəkən fermerlərə loqistik dəstək göstərilir. Onların məhsulları birbaşa təsərrüfatlarından yarmarka keçirilən ünvanlara qədər daşınır.

"Kənddən şəhərə" həftəsonu yarmarkaları aşağıdakı ünvanlarda fəaliyyət göstərəcək:

- *Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 ("Gənclik" metro stansiyasının çıxışı)*
- *Binəqədi rayonu, Süleyman Sani Axundov, 5B ("İnqilab" kinoteatrının yanı)*
- *Xırdalan şəhəri, Heydər Əliyev prospekti, 41A*




# "Formula-1"
# Azarkeşlərin həyəcanı



**Ölkəmizin illərdir evsahibliyi etdiyi "Formula-1" Qran-prisinin həyəcanı bir neçə gündür ki, yerli və xarici idman mətbuatından böyük həyəcanla duyulur. Bu həyəcanı canlı yaşamaq, yarışlara tribunalardan tamaşa etmək üçün isə müxtəlif ölkələrdən Azərbaycana azarkeşlər təşrif buyurublar. Gəlişlərindən aydın sezilir ki, beynəlxalq yarışın həvəskarları minlərlə kilometrləri mübarizə aparan komandalara dəstək olmaq, həmçinin yarış həyəcanını məkanında, Azərbaycanın döyünən ürəyində izləmək üçün qət ediblər.**



## Bakı xarici qonaqların hər birini düşündüklərindən də maraqlı və ecazkar mənzərəsi ilə qarşılayıb





Elə bu səbəblə biz də, turistlərin dilindən təəssüratlarını öyrənmək üçün paytaxtın mərkəzi küçələrində onların bəziləri ilə həmsöhbət olduq.

### "Burada keçirdiyimiz günləri gözəl xatirələrlə yada salacağıq"

***Aqleem Şarşani, Pakistan:***

- Artıq neçə gündür ki, Bakıdayıq. Buradan aldığım zövqü ifadə etmək çətindir. Əslində, dostum Saif ur Rehmanla gəliş məqsədimiz iş üçün idi. Ancaq işlərimizi bitirdikdən sonra əlavə bir neçə gün də şəhərdə qalıb gəzmək qərarına gəldik. Bu zaman öyrəndik ki, Bakıda "Formula-1" yarışı keçirilir. Böyük məmnunluqla tədbirə bilet aldıq. Doğrusu, bu, bizim üçün ilk təcrübə olacaq. Ancaq ümid edirəm ki, tədbir möhtəşəm təşkilatçılığı ilə bizi də həyəcanlandıracaq.

Pakistanla Azərbaycan arasındakı dostluqdan dolayı, burada bizə fərqli bir istiqanlılıqla yanaşırlar. Yeməklərə gəldikdə isə, biz türk mətbəxi ilə çox yaxından tanışıq, Azərbaycan mətbəxi ilə oxşarlıq təşkil etdiyindən bizə yeməklər çox doğma gəlir. Bir sözlə, düşünürəm ki, burada keçirdiyimiz günləri gözəl xatirələrlə yada salacağıq.

### "Bakı çox maraqlı və heyrətamiz şəhərdir"

***Cekson Vonq, Birləşmiş Krallıq:***

- Bakı çox maraqlı və heyrətamiz şəhərdir. Keçdiyim yerlərə kəşf edəcəyim gözlərlə baxıram. Çünki hər dəfə maraqlı anlarla qarşılaşıram. "Formula-1"i izləmək üçün gəlsəm də, yeni bir şəhərlə tanış olmaq məndə fərqli bir maraq yaratdı.

6 ildən çoxdur ki, müntəzəm olaraq Formula yarışlarını izləyir və fürsət tapdıqca keçirildiyi ölkələrə səfərlər edirəm. Bu il isə daha fərqli olacağını düşünürəm. Küçələr pilotların mübarizə meydanıdır. Bu gün səhər yarışın keçirildiyi küçələrə nəzər saldım. Həqiqətən də çox maraqlıdır. Ümumiyyətlə, yarışda iştirakçılar və maşınlar hər nə qədər cəlbedici olsa da, ən həyəcanlı anlar yollarda, sərt döngələrdə yaşanır.

Treklər şəhər dövriyyəsi üçün olduqca əhəmiyyətlidir. Müşahidələrimə əsasən deyə bilərəm ki, bir çox şəhər dövrələri sıx və dardır, bu da sürəti çox aşağı endirir. Amma uzun və enli olan Bakı treklərində pilotlar olduqca yüksək sürətlə ötmələr edə biləcəklər. Bu da məxsusiliyi ilə yarışa rəngarənglik qatacaq. Yarışı TV-dən izləyənlərə isə deyə bilərəm ki, ekranlara daha yaxın əyləşsinlər. Çünki builki "Formula-1"də möcüzələr yaşana bilər.

### "Mütləq Azərbaycana təkrar səyahət edəcəm"

***Stefan Matteus, İngiltərə***

- Bakıya dünən gəlməyimə baxmayaraq, artıq bir çox yerləri gəzmişəm. Qısa müddətə səfər etdiyim üçün bütün görməli yerləri gəzib-dolaşmaq istəyirəm. Ancaq düşünürəm ki, 2-3 gündə belə gözəl şəhəri gəzib bitirmək mümkün deyil.

Budəfəki səfərim yalnız yarışa görə olduğundan növbəti gəlişimdə mütləq ki, Azərbaycanı gəzib dolaşacağam. "Formula-1"də komandalara deyil, adətən yarışçıların özlərinə azarkeşlik edirəm. "Red Bull" komandasından Serxio Peres mənim ən sevimli pilotumdur. Bu yarışda da qalib olması üçün ona tam dəstəyimi göstərəcəm. Ümid edirəm ki, yarışdan qalib ayrılarıq.

### "Yarışdan əvvəl çimərlik mövsümünü elə burada açdıq"

***Dinara Barşeva, Qazaxıstan:***

- Azərbaycana ilk dəfədir ki, gəlirik. Havaların isti keçməsi bizi çox sevindirdi. Yarışdan əvvəl çimərlik mövsümünü də elə burada açdıq.

Hazırda Mərdəkandan qayıdırıq, üstümüzdə oradan qalan qumları da görə bilərsiniz. "Formula-1"də yarışlar üçün səbirsizlənirik. Daim seçilən və qalibiyyətinə güvəndiyimiz "Red Bull" komandasına azarkeşlik edirik.

### "Turlarla tarixi yerlərə, muzeylərə gedəcəyik"

***Ton və Cens, Niderland:***

- Adətən, səyahətləri oğlumla birlikdə edirik. Budəfəki səfər planlarımıza Azərbaycan da daxil oldu. Bu ölkə haqqında çox məlumatımız yox idi. Amma buraya gələndən sonra heç qayıtmaq istəmirik. Yarış bitdikdən sonra Azərbaycanı daha yaxından tanımaq üçün turlarla tarixi yerlərə, muzeylərə gedəcəyik.

"Formula-1" oğlumun ən sevdiyi yarışdır. Çox böyük heyranlıqla hər il bu mövsümü gözləyir. Onun ən sevimli komandası olan "Mercedes"in pilotlarının qalib olması xəbərini eşitmək arzusundayıq. Bu il ona yarışın 8-ci mərhələsini canlı olaraq Bakı tribunlarından izləməyi hədiyyə etdim. Bakıdakı keçirdiyimiz zamandan böyük məmnunluqla ayrılacağımızı düşünürəm.

### "Şəhəri şəhər edən insanlarıdır, yoxsa daş, torpaq hər yerdə var"

***Georgi Kirman, Gürcüstan:***

- Mən Azərbaycanı, xüsusilə Bakını çox sevirəm. Özüm dəfələrlə Bakıya gəlmişəm, hətta əsgərliyimi də burada keçirmişəm. İndi Azərbaycana qızımı və oğlumu da gətirmişəm. Həm yarışa tamaşa edəcəyik, həm də övladlarımın Bakını, qonaqsevər insanlarını tanımalarını, görmələrini çox istəyirəm.

Bilirsiniz, şəhəri şəhər edən insanlarıdır, yoxsa daş, torpaq hər yerdə var. Mən də buranın insanlarını çox sevirəm. Yarışı da səbirsizliklə gözləyirəm. İllərdir "Mercedes" komandasına pərəstiş edirəm".

### "Hər şey yüksək səviyyədə və peşəkarlıqla təşkil olunub"

***Mehmet Tuna, Türkiyə:***

- Dostlarımla hər il bir ölkəyə "Formula-1" yarışını izləməyə gedirik. Bu dəfə belə qərara gəldik ki, qardaş ölkəyə gələk. Türkiyədən gəldiyimizi eşidənlər bizi elə sevinc və sevgiylə qarşılayırlar ki, burada özümüzü elə Vətənimizdəki kimi hiss edirik.

Nə dil çətinliyi çəkirik, nə yemək. Hər şey yüksək səviyyədə və peşəkarlıqla təşkil olunub. Getdiyimiz digər ölkələrdən heç nə ilə geridə qalmır. Burada olmaqdan çox xoşbəxtik.

### "Unudulmaz gəzinti və təcrübə əldə edəcəyik"

***Larisa Denisova, Rusiya:***

- Əslində, Azərbaycana daha öncə gələcəkdik. Təəssüf ki, pandemiya bütün planlarımızı pozdu. Bakıda keçirilən öncəki "Formula-1" yarışlarına gələn tanışlarımız geri döndükdən sonra elə ağızdolusu danışırdılar ki, biz də həvəsləndik və buna görə gəlməyə bilməzdik.

Uzun illərdir bu yarışların pərəstişkarıyam, amma ilk dəfə olaraq canlı tamaşa edəcəm. Ümid edirəm ki, unudulmaz gəzinti olacaq.

### "Ən sevdiyimiz piti və düşbərə oldu"

***Alessandro Patrisio, İtaliya:***

- Əslində, azərbaycanlılarla temperament etibarilə çox bənzəyirik, hər iki xalq emosional, tez qaynayıb-qarışan və coşqulu olurlar. Azərbaycanın yeməklərini, iqlimini çox bəyəndik. Ən sevdiyimiz isə piti və düşbərə oldu.

Hətta xanımım restoranın aşpazından həmin yeməklərin hazırlanma qaydasını da soruşdu. Gəlişimizin əsas məqsədi yarış olsa da, mütləq muzey və tarixi məkanlara da baş çəkəcəyik. Ümid edirəm ki, dəstəklədiyim komanda da qalib gələcək. "Red Bull" favorimdir.

### "Bakı ecazkar və çox maraqlı şəhərdir"

***Per Sunde, Norveç:***

- Nəhayət ki, səbirsizliklə gözlədiyim yarış başladı. Xanımım və qızımla bura gəlmişəm. Norveçdə yaşayırıq. "Formula-1" üçün Monakoya da getmişdik. Hər il mütləq yarışın keçirildiyi bir ölkəyə getməyə çalışıram. Çox şanslıyam ki, xanımım da mənim kimi "F-1" azarkeşidir. Düzdür, fərqli komandaları dəstəkləyirik. Mən "Alpha Tauri", o isə "Ferrari" komandasının fanatıdır. Yarışlardan asudə qaldığımız vaxtlarda mütləq şəhəri gəzəcəyik. Siyahımız uzundur. Bakını gəzib dolaşmaq fikrindəyik. Bakı ecazkar və çox maraqlı şəhərdir.

Göründüyü kimi, Bakıya gələn əcnəbilər çox, düşüncə və fikirləri isə müxtəlifdir. Əsas olan onların ölkəmizdən xoş təəssüratla qayıtmalarıdır. Onların təəccüblə ətrafa baxdıqları gözlərindəki duyğulardan aydın sezilirdi ki, "Formula- 1" səbəbi ilə gəldikləri bu ölkə hər birini düşündüklərindən də maraqlı və ecazkarlıqla qarşılayıb.

***Aydan XƏLİLOVA,***
***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# "F-1"də birinci sərbəst yürüşün qalibi məlum olub



**Dünən yürüşə hər biri iki pilotdan ibarət 10 komanda qatılıb.**

"Mercedes" komandasının heyətində Luis Hamilton və Corc Rassel, "Ferrari" komandasında Karlos Sayns və Çarls Lekler, "Williams"ın heyətində Aleksander Albon və Nikolas Latifi yarışırlar. "Red Bull Racing" komandasında Serxio Peres, Maks Ferstappen, "Alpha Tauri"də Pyer Qasli və Yuki Tsunoda, "Alpine"da isə Fernando Alonso ilə Esteban Okon mübarizə aparırlar. Bundan başqa, "Alfa Romeo"nun heyətində Valtteri Bottas və Cou Quanju, "McLaren"də Daniel Rikkardo və Lando Norris yürüşdə iştirak edirlər. Pilotlar Mik Şumaxer və Kevin Maqnussen "Haas", Sebastian Fettel və Lans Stroll "Aston Martin" komandasının idman şərəfini qoruyurlar. Yürüş iştirakçıları 1 saat ərzində 6 kilometrlik Bakı trekində yarışıblar. Birinci sərbəst yürüşü "Red Bull Racing"in pilotu Serxio Peres lider kimi tamamlayıb. "Ferrari"nin üzvü Şarl Lekler ikinci, "Red Bull Racing"in digər pilotu Maks Ferstappen isə üçüncü olublar.

# "Formula-1" gündəliyi

## Pit zolağı gəzintisinin məmnunluğu



"Formula-1" Azərbaycan Qran-prisi çərçivəsində Pit zolağında gəzinti olub. Bu yarışın ən maraqlı və unudulmaz hissələrindən biri hesab edilir. Gəzinti 2 saata yaxın davam edib.

Burada azarkeşlər komandalar, onların qarajları ilə yaxından tanış olub, dünyaşöhrətli pilotlarla rəsm çəkdiriblər.

Gəzinti iştirakçıları komandaların yarışa hazırlığı və qarajlarda yaradılmış şəraitlə də maraqlanıblar. Böyük coşqu ilə keçən Pit zolağı gəzintisindən azarkeşlər xoş təəssüratlarla ayrılıblar. Pit zolağı gəzintisində yalnız üçgünlük bileti olan tamaşaçılar iştirak ediblər.

## Komandalar səhvlərini təkrarlamaq istəmirlər



"Formula-1" komandaları Monakodan sonra Bakıdakı gərgin mübarizəyə hazırlaşırlar. "Mercedes" komandasının rəhbəri Toto Volf deyir ki, onlar yaxşı xal qazansalar da, nəticələr daha yüksək ola bilərdi. Mübarizəni davam etdirmək üçün hər hansı fürsətdən maksimum dərəcədə istifadə etmək lazımdır.

Barselonada olduğu kimi, Monakoda da trasın asta döngələri W-13 üçün ciddi sınağa çevrilərək, mühüm dərs verib. Növbədə daha bir şəhər trası Bakıdadır, buna görə də komanda hansı sahələrdə sürəti artıra biləcəyini müəyyən etməkdən ötrü əvvəlki iki yürüşdə toplanan məlumatların təhlili üzərində səylə çalışıb.

Volf deyir ki, Bakıda tez-tez maraqlı və cəlbedici yürüşlər keçirilir, trasın quruluşu da mübarizə aparmaq üçün bütün imkanları təmin edir.

## "F-1" pilotları yarış üçün həyəcanlıdırlar



Dünyanın idman ictimaiyyətinin diqqəti paytaxtımızda keçirilən "Formula -1" yarışındadır. Bakı yarışın Azərbaycan Qran-prisinə evsahibliyi edir. Şəhər trekində yarışlara başlayacaq pilotlar, eləcə də komandaların rəsmiləri sosial şəbəkələrdəki paylaşımlarında həyəcanverici çempionat haqqında fikirlərini bölüşüblər.

Ötən il Bakıda qələbə qazanan "Red Bull Racing" komandasının pilotu Serxio Peres yazıb ki, qarşıda onları Azərbaycan Qran-prisi gözləyir. Bu il titul uğrunda mübarizə çox gərgin olacaq və tam səfərbər olmalı olduqlarını diqqətə çatdırıb: "Şəhər traslarını xoşlayıram, burada çox şey pilotun ustalığından asılıdır".

Komandanın digər sürücüsü Maks Ferstappen Bakıya qayıtmağı səbirsizliklə gözlədiyini deyib. Bildirib ki, burada ciddi tormozlamalar və kiçik çıxma zonaları olan mürəkkəb şəhər halqası mövcuddur. Orada sazlamanı tapmaq və əlverişli hücum küncünü seçmək çox çətindir. Serxionun komanda ilə müqavilənin müddətini uzatması çox yaxşıdır".

"McLaren" komandasının pilotu Daniel Rikkardo Bakıdakı trekin böyük azarkeşi olduğunu söyləyir. Səbəbi isə bu trekin bir sıra maraqlı cəhətləri və üstünlükləri olmasıdır. Belə ki, birinci döngədə daim maraqlı mübarizə gedir. Bu dövrədə müxtəlif strateji variantlar tətbiq olunur. Yarışda trekin düz hissəsi pilotlara ötmə imkanı versə də, başlanğıcdakı mövqe də çox vacibdir.

"McLaren" komandasının digər pilotu Lando Norris isə bildirib ki, daha bir şəhər trasında çıxış etmək çox xoşdur. Keçənilki yürüş göstərdi ki, bu yürüşdə hər şey ola bilər. Unikal trasda yeni nəslə aid avtomobillərin sınaqdan necə çıxacağını görmək çox maraqlıdır.

"Alfa Romeo" komandasının finlandiyalı pilotu Valtteri Bottasın Bakı trası ilə bağlı həm yaxşı, həm də xoşagəlməz xatirələri var. Vurğulayıb ki, bu mərhələ özündən sonra yalnız müsbət emosiyalarla xatırlanacaq. Həftəsonunun problemsiz keçməsi çox mühümdür. Hər ölkədə olduğu kimi, Bakıdakı da yürüşlər zamanı insidentlər çox olur. Biz hər bir imkandan istifadə etməyə hazır olmalıyıq. Bazar gününün maraqlı keçəcəyinə əminəm.

"Haas" komandasının pilotu Kevin Maqnussen Bakı yürüşlərinin, adətən, gözlənilməz hadisələrlə zəngin olduğunu söyləyir. Burada oyundan çıxma, sarı bayraqlar və təhlükəsizlik avtomobilinin görünməsi riski yüksəkdir. Adətən, bu trasda çoxlu qırmızı bayraqlar olur ki, bu da digər traslarla müqayisədə daha böyük əlavə imkanlar açır.

## Pit-leyn qaydaları dəyişdirilib



Monakoda "Red Bull Racing" komandasının pilotları pit-leynə girişi və çıxışı göstərən sarı xəttə daxil olanda mübahisəli vəziyyət yaranmışdı.

"Ferrari" protest qaldıraraq, Ferstappenin bolidinin sol ön və arxa şinlərinin qismən sarı xətdən solda yerləşməsini və bununla yürüşlərin direktorunun təlimatının pozulmasını təsdiqləyib. Vəziyyətin araşdırılması zamanı müəyyən edilib ki, təlimatlar köhnəlib və bu ifadə əvvəlki fayllardan götürülüb. Belə ki, 2022-ci ildə qaydalar dəyişdirilib.

Beynəlxalq İdman Məcəlləsinin yeni versiyasında deyilir ki, pit-leyndən çıxan maşının heç bir şini bütöv çıxış xəttini kəsməməlidir. Yürüşün direktoru öz təlimatlarında dərhal qaydaların interpretasiyası kursunu deyil, onlara hərfi mənada riayət etmək kursunu göstərib.

"Formula-1" Azərbaycan Qran-prisindən əvvəl yürüş direktorunun təlimatında deyilir: "Beynəlxalq İdman Məcəlləsinin L əlavəsinin 4-cü fəslinin 4-cü və 5-ci paraqrafına müvafiq olaraq, yürüşçülər pit-leynə giriş və çıxış zamanı müəyyən edilən prosedurlara dəqiq riayət etməlidirlər".

Bundan sonra məhdudiyyət xətti üzərinə bütün şinlə çıxma qayda pozuntusu hesab ediləcək.

***Ü.XASPOLADOVA,***
***"Azərbaycan"***

# Komando

## bölmələrində taktiki-xüsusi təlimlər davam edir









**Quru Qoşunlarının döyüş hazırlığı planına əsasən, Əməliyyat (Komando) hərbi hissələrinin şəxsi heyəti ilə taktiki-xüsusi təlimlər keçirilib.**





Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əldə edilən kəşfiyyat məlumatına əsasən, şərti düşmənin diversiya qrupunun təxribat törədəcəyi ehtimal olunan ərazi müəyyənləşdirilib.

Komandolar əməliyyat rayonunun dərinliyinə sızaraq müvəqqəti sığınacaqların mühasirəyə alınması və şərti düşmənin zərərsizləşdirilməsi tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetiriblər. Keçirilən təlimlərin əsas məqsədi şəxsi heyətin dağlıq ərazilərdə taktiki vərdişlərinin təkmilləşdirilməsi, eləcə də Əməliyyat (Komando) bölmələrinin döyüş qabiliyyətinin daha da yüksəldilməsidir.

# İlin əvvəlindən Azərbaycanın beynəlxalq hava limanlarında milyon yarımdan artıq insana xidmət göstərilib



Heydər Əliyev Beynəlxalq Aeroportunun Mətbuat xidmətindən verilən məlumata görə, 2022-ci ilin əvvəlindən Azərbaycanın beynəlxalq hava limanlarında ümumi sərnişin axını 1,53 milyon nəfər təşkil etmişdir. Bu göstərici ötən ilin analoji göstəricisindən iki dəfə çoxdur.

2022-ci ilin may ayında Azərbaycanın hava limanlarında 396 min nəfərə xidmət göstərilmişdir, onlardan 315 min nəfəri paytaxt hava limanından uçan və ya bura gələn sərnişinlərdir. Bakı hava limanının baza aviadaşıyıcıları - "AZAL" və "Buta Airways" ilə ilin əvvəlindən müvafiq olaraq 455 və 154 min sərnişin daşınmışdır. Onlardan 341,5 min nəfəri beynəlxalq reyslərin sərnişinləridir ki, bu da beynəlxalq daşımaların ümumi həcminin 36 faizini təşkil edir. 2022-ci ilin may ayında Bakı hava limanına 24 xarici aviaşirkət müntəzəm uçuşlar həyata keçirib. Həmçinin bu ay Varşavadan Bakıya LOT aviaşirkətinin birbaşa reysləri açılıb. May ayında Bakıdan 10 ən populyar beynəlxalq istiqamətə İstanbul, Dubay, Moskva, Tbilisi, Abu-Dabi, Şərcə, Minsk, Ankara, İzmir və Küveyt şəhərləri daxil olub. Heydər Əliyev Beynəlxalq Aeroportu (IATA: GYD) - sərnişin və yük daşımalarının, uçuş-enmə əməliyyatlarının həcminə, aerovağzal kompleksinin sahəsinə və yük kompleksinin gücünə görə Azərbaycanda və regionda ən böyük hava limanıdır.

2021-ci ildə Heydər Əliyev Beynəlxalq Aeroportu "Skytrax" Beynəlxalq Hava Nəqliyyatı Reytinq Agentliyi tərəfindən hava limanları arasında COVID-19 pandemiyası dövründə epidemioloji təhlükəsizlik üzrə 5 ulduzlu reytinqə layiq görülmüşdür. Bu reytinq öz sərnişinlərini və əməkdaşlarını koronavirusun yayılmasından qorumaq üçün Heydər Əliyev Beynəlxalq Aeroportunda tətbiq olunan COVID-19 əleyhinə tədbirlərin səmərəliliyinin yüksək səviyyədə tanınması deməkdir.

# Dünyanın taxıl ehtiyatı tükənir

## Ukrayna anbarlarında qalan 20 milyon tondan çox taxılın daşınması üçün aparılan danışıqlar bir nəticə vermir



Rusiya Qara dənizdəki "dəhlizlə" Ukraynanın buğda ixracının təhlükəsizliyinə zəmanət verməyə hazır olduğunu bildirib. Rəsmi Kiyev isə bir sıra Qərb ölkələrindən təhlükəsizlik zəmanəti almağa ehtiyac duyur.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının məlumatına görə, dünya bazarında satış üçün nəzərdə tutulan 20 milyon tondan çox taxıl hələ də Ukraynadadır. Bu ölkənin taxıl ixracının yarıdan çoxu Qara dənizin ən böyük limanı - Odessa vasitəsilə həyata keçirilirdi. Lakin fevralın sonunda Rusiya ilə müharibə başlayandan bəri Ukraynanın dəniz blokadası səbəbindən liman kranları fəaliyyətsiz qalıb. Bundan əlavə, Ukrayna sahilləri yaxınlığındakı çoxsaylı minalar gəmiçilik üçün təhlükə yaradır. Qara dənizdə nə qədər mina quraşdırıldığını isə heç kim bilmir. Artıq Türkiyə və Rumıniya dayaqlarından qoparılan və axınla bu ölkələrin ərazi sularına gətirilən dəniz minalarını zərərsizləşdirmək məcburiyyətində qalıblar.

### Qara dənizdəki minaları kim təmizləyəcək?

Dünyanın taxıla böyük ehtiyacı var - Afrikanın, Yaxın və Orta Şərqin bir sıra ölkələrində buğda ehtiyatları, demək olar ki, tükənib. Ukraynaya isə təcili olaraq taxıl satışından gəlir lazımdır. Son həftələrdə Kiyev hakimiyyəti ölkədən dəmir yolu ilə qonşu dövlətlərin ən yaxın limanlarına taxıl ixracını təşkil etməyə çalışıb, lakin buna Ukrayna və Avropadakı müxtəlif dəmir yolu ölçüləri, eləcə də Avropa ölkələrində yük vaqonlarının çatışmazlığı imkan verməyib.

Buna görə də artıq bir neçə həftədir ki, Qara dənizdən Ukrayna taxılının ixracını təşkil etmək üçün müxtəlif cəhdlər edilir. Bu məqsədlə Rusiyanın xarici işlər naziri Sergey Lavrov Ankarada Türkiyə rəsmiləri ilə görüşüb və mətbuatın yazdığına görə, prinsipial razılıq əldə olunub. Buna əsasən, Türkiyə donanması Ukrayna limanlarını minalardan təmizləyəcək və ticarət gəmilərinin təhlükəsizliyini təmin etmək üçün onları müşayiət edəcək.

İyunun 8-də Ankarada keçirdiyi mətbuat konfransında Sergey Lavrov "Ukrayna limanlarından çıxan gəmilərin təhlükəsizliyinə zəmanət verməyə hazırıq" deyib və bunun "türk tərəfdaşlarımızla birlikdə" ediləcəyini bildirib. BMT İstanbulda Ukrayna taxıl ixracının dünya bazarında paylanmasını tənzimləyəcək koordinasiya məntəqəsi açmağı planlaşdırır. Taxılın göndərilməsi üçün Ukraynanın üç limanı nəzərdə tutulub - Odessa, habelə Odessa vilayətindəki Çernomorsk və Yujnoye. Bundan başqa, Nikolayevdən, eləcə də Rusiyanın nəzarəti altında olan Xerson və Mariupoldan taxıl ixracı müzakirə edilir.

Ukrayna ümumilikdə belə bir razılaşmada maraqlıdır, lakin bu, Kiyevdəki hakimiyyətdə ciddi şübhələr yaradır. Ankarada keçirilən görüşdə Ukrayna nümayəndələri iştirak etməyiblər. BMT özünün iştirakı ilə Türkiyə, Rusiya və Ukrayna nümayəndələrindən ibarət dördtərəfli təmas qrupunun yaradılmasını təklif edib ki, bu qrup Qara dənizdə mümkün "taxıl dəhlizi"ndən istifadəyə nəzarət mexanizmini işləyib hazırlasın.

### Minaların təmizlənməsi iki həftə çəkə bilər

Alman Fridrix Nauman Fondunun Türkiyə nümayəndəliyinin rəhbəri Beate Apeltin dediyinə görə, belə bir dəhliz hamının istəyilə yaradıla bilər. Bununla belə, məsələn, Qara dənizdəki minalarla bağlı bir çox mübahisəli məqamlar aradan qaldırılmayıb.

Ekspertin fikrincə, taxıl daşıyan gəmilərin Odessadan çıxması üçün minalar təmizlənməlidir. Türkiyə rəsmilərinin məlumatlarına görə, bu, bir-iki həftə ərzində edilə bilər.

İstanbuldakı Yaxın Şərq İnstitutunun təhlükəsizlik üzrə eksperti Yörük Işık deyir ki, Türkiyə Hərbi Dəniz Qüvvələri NATO-nun bu sahədə ən təcrübəli donanmalarından biridir. Belə ki, Türkiyə donanmasında bu tapşırığı yerinə yetirmək üçün kifayət qədər təlim keçmiş dənizçilər və 11 minaaxtaran gəmi var.

### NATO tərəfindən yük gəmilərinin müşayiəti

Ankara buna hazır olduğunu bildirib, lakin Ukraynanın razılaşacağı hələ məlum deyil. Yörük Işık hesab edir ki, Kiyevin razılaşması üçün bir sıra dövlətlərdən, məsələn, Türkiyədən, Böyük Britaniya və ABŞ-dan təhlükəsizlik təminatı lazımdır. Bu məsələdə isə NATO ölkələrinin qoşunlarını hələ də müdaxilə etmədikləri münaqişəyə cəlb etmək təhlükəsi var. Ticarət gəmiləri atəşə tutularsa, onları müşayiət edən NATO hərbi gəmiləri birbaşa hərbi əməliyyatlarda iştirak edəcək və bu, münaqişənin genişlənməsinə səbəb ola bilər.

Bundan əlavə, Rusiya Odessaya gedən yük gəmilərindən Ukraynaya silah göndərilməməsinə əmin olmaq üçün onları yoxlamaqda israr edir. Kiyev isə bu cür yoxlamalara qarşıdır. Digər son dərəcə mübahisəli məqam isə Rusiyanın nəzarəti altında olan Ukraynanın liman şəhərlərindən, xüsusilə Xerson və Mariupoldan çıxarılacaq taxılın satışından kimin gəlir əldə edəcəyidir.

Taxılla bağlı tamhüquqlu razılaşmaya nail olmaq üçün hələ də həll edilməli olan bir çox mübahisəli məsələlər var. "Güman ki, Moskva "taxıl dəhlizi" ilə bağlı razılaşmanın müqabilində bir sıra sanksiyaların ləğvini tələb edəcək", - deyə Beate Apelt bildirib.

Sergey Lavrovla birgə mətbuat konfransında Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu artıq belə bir ehtimala eyham vurub: "Biz Ukrayna taxılının dünya bazarına açılmasından danışırıq, Rusiyanın ixracına maneələrin aradan qaldırılmasını tələb etməyi qanuni hesab edirik".

Ekspert hesab edir ki, bu, Ukrayna və onun Qərb tərəfdaşları üçün asan məsələ deyil. Xüsusilə nəzərə alsaq ki, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının məlumatına görə, taxıl məsələsinin həllinə cəmi bir neçə həftə qalıb. Çünki artıq iyul ayından Ukraynada taxıl yığımına başlayacaqlar, anbarlarda isə yer yoxdur.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*


## Lənkəran Dövlət Universiteti
### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

Turizim-təcrübə bazasında cari təmir işləri, inzibati binanın cari təmir işləri və 1 saylı tədris korpusunun cari təmiri işlərinin satın alınması.

Tender iştirakçıları **https://www.etender.gov.az** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzalar vasitəsilə daxil olmaqla tender haqqında ətraflı məlumatı əldə edə bilərlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. İxtisas uyğunluğunun müəyyənləşdirilməsində anoloji işlərdə təcrübəsi, maliyyə vəziyyəti, müqavilənin vaxtında yerinə yetirilməsi üçün zəruri potensial meyarlara üstünlük veriləcəkdir.

İştirak haqqının ödənilməsi yalnız "ASAN Ödəniş" vasitəsilə həyata keçirilə bilər. Müsabiqədə iştirak etmək üçün portal üzərindən müsabiqəyə daxil olduqdan sonra "ASAN Ödəniş et" düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak etmək olar.

**İştirak haqqı - 150.00 (bir yüz əlli) AZN**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);
- tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 45 bank günü qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Arayış 2022-ci ilin may-iyun-iyul ayları ərzində verilmiş olmalıdır və malgöndərənin öz öhdəliklərini yerinə yetirmək üçün potensial imkana malik olmasını təsdiq etməlidir, həmçinin arayışı verən orqan tərəfindən və ya notarial qaydada təsdiq olunmalıdır);
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2021-ci il üzrə);
- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir). Bank arayışı 2022-ci ilin may-iyun-iyul ayları ərzində verilmiş olmalıdır;
- satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (İddiaçılar tərəfindən müvafiq sahədə peşəkarlığını, təcrübəsini və ixtisaslı kadr imkanlarının mövcudluğu barədə təsdiqedici sənədlər təqdim edilməlidir (büdcə və ya fərdi sahibkarlarla müqavilələrin surətləri, layihənin həyata keçirilməsində iştirak edəcək işçilərin CV və mövcud sertifikatlar);
- satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması malgöndərənin (podratçının) kommersiya qurumunun dövlət reyestrindən çıxarışın və vergi uçotunda olduğunu təsdiq edən sənədin surəti (sənədin notarial qaydada təsdiq edilməsi mütləqdir);
- mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Dövlət Statistika Komitəsindən alınmalıdır. Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);
- öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması; Malgöndərən (podratçı) uçotda olduğu vergi orqanından alır (Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir). Arayış 2022-ci ilin may-iyun-iyul ayları əzrində verilmiş olmalıdır;
- müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması; Malgöndərən (podratçı) uçotda olduğu vergi orqanından alır (Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir). Arayış 2022-ci ilin may-iyun-iyul ayları əzrində verilmiş olmalıdır;
- satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi; Məhkumluq haqqında arayış (DİN və ya ASAN xidmət mərkəzlərindən);
- müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziya və ya icazə;
- digər müvafiq sənədlər (Əsas şərtlər toplusunda müəyyən edilmiş müvafiq sənədlər).

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla ) **05 iyul 2022-ci il saat 17:00-a** qədər, tender təklifi və bank təminatını isə **15 iyul 2022-ci il saat 17:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **18 iyul 2022-ci il saat 17:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***Qeyd:*** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***



## BİLDİRİŞ

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən 27 aprel 2022-ci il tarixdə **www.etender.gov.az** portalında və "Azərbaycan" qəzetində elan olunmuş "Azərbaycanda ilk model müəssisədə qənaətli iş modellərinin tətbiqinə dair praktiki təlim və məsləhət xidmətləri"nin satın alınması ilə bağlı keçirilmiş təkliflər sorğusunda "BAKER TİLLY AUDİT AZƏRBAYCAN" QSC qalib şirkət elan olunmuşdur.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***



«AZƏRBAYCAN» qəzetinin reklam xidməti


## ALLAH RƏHMƏT ELƏSİN!

Vaqif Həsənov və Bəxtiyar Sadıqov Məhərrəmovlar ailəsinə Milli Qəhrəman Asif Məhərrəmovun anası

**MƏHLUQƏ MƏHƏRRƏMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5975
Sifariş 1579
Qiyməti 40 qəpik